

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 sentyabr 2026-cı il, cümə axşamı № 168 (7235) Qiymәti 60 qəpik




## İlham Əliyev “Qobustan” Günəş Elektrik Stansiyasının açılışında...

Bax səh. 2



# Azərbaycan öz gücü ilə işğala son qoydu...

**İlham Əliyev: BMT - hansı ki, Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdi ki, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır, - səssiz qalıb, ATƏT səssiz qalıb. Avropa Şurası faktiki olaraq işğalı dəstəkləyib. Avropa Parlamenti işğalçı Ermənistana hər zaman dəstək verib və bu gün də bu belədir**

Bax səh. 2

## Sivilizasiyaların, mədəniyyətlərin və dəyərlərin qovuşduğu məkan

Bax səh. 3



Bax səh. 5

## YAP bundan sonra da Azərbaycanın inkişafının və yeni qələbələrinin siyasi avanqardı kimi çıxış edəcək



Bax səh. 4

## Azərbaycan - Türkiyə: Gələcəyə hesablanan hədəflər

## Qərbi Azərbaycan İcmasından çağırış

Bax səh. 4

## Pekində 13-cü Syanşan Forumu keçirilir

Bax səh. 4

## Mükəmməl investisiya strategiyası

Bax səh. 6



## ABŞ - İran münaqişəsində yeni mərhələ...

Bax səh. 7




## Dəyənəyin iki başı...

Bax səh. 7

# İlham Əliyev “Qobustan” Günəş Elektrik Stansiyasının açılışında...





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da paytaxtın Qaradağ rayonunda 100 MVt gücündə “Qobustan” Günəş Elektrik Stansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazov, Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Lu Mey, “Universal International Holdings Limited” şirkətinin baş icraçı direktoru Yi Nan dövlətimizin başçısını qarşıladılar.

Prezident İlham Əliyevə “Qobustan” Günəş Elektrik Stansiyası, “Universal Energy” şirkəti və onun Azərbaycandakı fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, Çinin Şanxay şəhərində yaradılmış şirkət yaşıl enerji və enerji saxlanc sistemləri üzrə həllər təqdim edir.

“Universal Energy” Çinlə yanaşı, Qazaxıstan və Özbəkistanda da bərpaolunan enerji layihələri həyata keçirir.

Nazirlər Kabinetinin 2023-cü ildə qəbul etdiyi qərarla Bakı şəhərinin Qaradağ rayonunun Pirsaat qəsəbəsində 300,77 hektar torpaq sahəsi Günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyənləşdirilib.

Bu ərazi Günəş elektrik stansiyasının tikintisi məqsədilə hərraca çıxarılıb və Çinin “Universal International Holdings Limited” şirkəti 2024-cü ildə hərracın qalibi olub.

“Qobustan” Günəş Elektrik Stansiyası layihəsi Azərbaycanda hərrac vasitəsilə həyata keçirilən ilk, eyni zamanda, “Universal Energy” şirkətinin ölkəmizdə icra etdiyi birinci layihədir.

Stansiyada Günəş panelləri ilə yanaşı, sahə invertorları və transformatorlar quraşdırılıb, kabelləşdirmə işləri tam yerinə yetirilib.

“Qobustan” Günəş Elektrik Stansiyasının istismara verilməsindən sonra hər il təxminən 200 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 45 milyon kubmetr təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 97 min ton azaltmağa imkan verəcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən enerji siyasətinin prioritet istiqamətlərindən biri də bərpaolunan enerji mənbələrinin geniş tətbiqidir.

Azərbaycanda yaşıl enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. İqtisadi potensial 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 QVt, Günəş enerjisi üzrə 23 QVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmində qiymətləndirilir. “Qobustan” Günəş Elektrik Stansiyasının istismara verilməsi ilə ölkəmizdə bərpaolunan enerji mənbələrinin ümumi gücü 2170 MVt, stansiyaların sayı isə 85 olacaq. Onların da 65-i su elektrik stansiyası (1443,5 MVt), 6-sı külək elektrik stansiyası (306,5 MVt), 10-u Günəş elektrik stansiyası (378,2 MVt), 3-ü hibrid elektrik stansiyası (7,3 MVt), 1-i isə BİO elektrik stansiyasıdır (37 MVt). Bərpaolunan enerji mənbələri ölkəmizin ümumi enerji gücünün təxminən 21,5 faizini təşkil edir. 2027-ci ilin sonunadək təxminən 1,5 QVt gücündə bərpaolunan enerji layihələrinin reallaşdırılması nəzərdə tutulur. Yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən bu layihələr ölkəmizin elektrik enerjisi ilə təminatı məsələsinə töhfə verməklə yanaşı, təbii qaza qənaət etməyə və atmosferə atılan karbon emissiyalarını xeyli azaltmağa şərait yaradır.





# Azərbaycan öz gücü ilə işğala son qoydu...

### İlham Əliyev: BMT - hansı ki, Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdi ki, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır, - səssiz qalıb, ATƏT səssiz qalıb. Avropa Şurası faktiki olaraq işğalı dəstəkləyib. Avropa Parlamenti işğalçı Ermənistana hər zaman dəstək verib və bu gün də bu belədir

1990-cı illərin əvvəlində işğala məruz qalan Azərbaycan ağır və mürəkkəb sınaqlarla üz-üzə dayanmalı oldu. Müstəqilliyini yenicə bərpa etmiş ölkə bir tərəfdən Ermənistanın hərbi təcavüzünə qarşı mübarizə aparır, digər tərəfdən isə baş verənlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün diplomatik səylər göstərirdi. Lakin həmin dövrdə dünyanın aparıcı güclərinin hadisələrə münasibəti Azərbaycanın gözləntilərini doğrultmadı. Torpaqlar işğal edildi, yaşayış məntəqələri dağıdıldı, yüz minlərlə insan doğma yurdlarından didərgin düşdü.

Beynəlxalq hüquq baxımından isə Azərbaycanın mövqeyi kifayət qədər aydın idi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü təsdiqlənir və işğalçı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılması tələb olunurdu. Lakin bu sənədlərin icrası üçün effektiv mexanizm yaradılmadı.

Beləliklə, münaqişə təkcə hərbi qarşıdurma deyil, həm də uzun illər davam edən ədalətsizlik nümunəsinə çevrildi. 30 ilə yaxın müddətdə Azərbaycanın şəhər və kəndləri dağıdıldı, tarixi-mədəni irsə ciddi ziyan vuruldu, məscidlər və digər dini abidələr təhqir edildi. Azərbaycanın bu ədalətsizliyə son qoyaraq Vətən müharibəsində torpaqlarını azad edən zaman üzə çıxan mənzərə bu dağıntıların miqyasını bir daha göstərdi - işğal olunmuş ərazilərdəki 67 məsciddən 65-i tamamilə dağıdılmışdı, tarixi abidələr sökülmüş, milli mədən tariximizi özündə əks etdirən tikililər məhv edilmişdi.

Bu gün vəziyyət kökündən dəyişib. Azərbaycan hərbi-siyasi gücü ilə öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Lakin torpaqların azad olunması tarixin yaddaşdan silinməsi demək deyil. Əksinə, keçmişin xatırlanması gələcəkdə eyni faciələrin təkrarlanmaması üçün mühüm şərtdir.





## Dünya işğala, təcavüzə, soyqırımına səssiz qaldı...

Vurğulandığı kimi, Azərbaycan xalqının yaddaşında işğal illəri yalnız itirilmiş torpaqların tarixi kimi qalmayıb. Bu dövr həm də insan faciələri, məcburi köçkünlük, dağıdılmış şəhərlər, kəndlər və məhv edilmiş mədəni irslə yadda qalıb. Bu faciələrin ən ağır səhifələrindən biri isə Xocalı oldu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı törədilən qətliam nəticəsində 613 nəfər öldürüldü. Onların arasında 63 uşaq, 106 qadın və 70 yaşlı insan var idi. 1275 nəfər girov götürüldü, 487 nəfər yaralandı. Xocalı faciəsi işğalın mahiyyətini göstərən ən dəhşətli nümunələrdən biri idi. Burada söhbət yalnız hərbi əməliyyatdan getmirdi. Dinc əhalinin hədəfə alınması, insanların öldürülməsi, girov götürülməsi və şəhərin dağıdılması müharibənin insan talelərinə vurduğu zərbənin miqyasını göstərirdi.

İşğal illərinin başqa bir ağır nəticəsi Azərbaycanın dini və mədəni irsinə qarşı həyata keçirilən dağıntılar oldu. Məscidlər, qəbiristanlıqlar, tarixi tikililər və digər mədəniyyət nümunələri zərər gördü. Bütün bunlar sadəcə keçmişin statistikası deyil. Dağıdılmış hər məscid, viran edilmiş hər kənd, yer üzündən silinmiş hər tarixi abidə Azərbaycanın yaddaşına vurulmuş zərbənin izidir. Ona görə də “Biz bunu heç vaxt unutmamalıyıq və unutmayacağıq” fikri yalnız emosional çağırış deyil. Bu, gələcək nəsillər qarşısında tarixi məsuliyyətdir. Azərbaycan torpaqlarını azad edib, lakin həmin torpaqlarda yaşananların yaddaşını da qorumalıdır. Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən bildirib ki, biz bu torpaqlara 30 ildən sonra qayıdanda nəyi gördük? Bunu indi bütün dünya görür - viran qoyulmuş şəhərlər, kəndlər, sökülmüş evlər, talanmış milli sərvətlərimiz, dağıdılmış məscidlər: “65 məscid Ermənistan dövləti tərəfindən, - mən xüsusilə bunu qeyd etmək istəyirəm, bu, Ermənistanın dövlət siyasəti idi, - Ermənistan dövləti tərəfindən tam dağıdılmışdır. Bəziləri yarıdağılmış vəziyyətdə idi. Yəqin ki, siz də o fotoları görmüsünüz, Ermənistan məscidlərdə bilərəkdən, qəsdən heyvan saxlayırdı, donuz saxlayırdı, inək saxlayırdı. Yəni bizi təhqir etmək, bizi aşağılamaq üçün, bizim həssaslığımızı dərk edərək, yəni qəsdən xalqımızı daha da incitmək üçün belə vəhşi əməllərdən də çəkinmədi. Əslində bu, təkcə bizə, xalqımıza yox, bütün İslam dünyasına bir təhqir idi. Bax, budur Ermənistan dövlətinin əsl siması. Biz bunu heç vaxt unutmamalıyıq və unutmayacağıq”.

Dövlət başçısı bildirib ki, bu torpaqlar 30 il ərzində Ermənistanın işğalı altında idi: “Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı şəhərində qanlı soyqırımı törədilmişdir. Artıq Xocalıda Xocalı Memorial Kompleksi də yaradılıb və əgər vaxtınız olarsa, oraya da baş çəkə bilərsiniz”.

İşğalın 30 ilə yaxın davam etməsinin səbəblərindən biri də beynəlxalq hüquqla real siyasi proseslər arasındakı ziddiyyət idi.

## BMT TŞ-nin 4 icra edilməyən qətnaməsi...

Əslində, problemin hüquqi çərçivəsi müəyyən edilmişdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı mövqeyi açıq şəkildə ortaya qoyurdu. Sənədlərdə işğalçı qüvvələrin geri çəkilməsi və hərbi əməliyyatların dayandırılması tələb edilirdi. Amma qətnamələrin qəbul edilməsi ilə onların icrası arasında böyük uçurum yarandı. Azərbaycan uzun illər ərzində beynəlxalq vasitəçilərin fəaliyyətindən konkret nəticə gözlədi. ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar isə nəticədə işğal faktını aradan qaldıra bilmədi. Status-kvo dəyişməz qaldıqca, münaqişənin uzadılması faktiki olaraq yeni reallığa çevrilirdi.

Bu prosesdə xarici dövlətlərin maraqları da mühüm rol oynayırdı. Cənubi Qafqazın geosiyasi əhəmiyyəti, enerji və nəqliyyat marşrutları, regional güc balansı müxtəlif dövlətlərin mövqelərinə təsir göstərirdi. Nəticədə beynəlxalq münasibətlərdə tez-tez müşahidə olunan ikili standartlar problemi Azərbaycan məsələsində də özünü göstərirdi. Ən böyük paradoks isə bundan ibarət idi: beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, qətnamələr qəbul edir, lakin həmin qərarların icrası üçün siyasi təzyiq mexanizmlərindən kifayət qədər istifadə etmirdilər. Belə vəziyyət işğalçı tərəfə zaman qazandırırdı. Prezident İlham Əliyev qeyd edib ki, dünya 30 il ərzində buna göz yumub. Ermənistanın arxasında duran böyük dövlətlər, o cümlədən və ilk növbədə, mənfur Minsk qrupunun həmsədr ölkələri bütün bu işləri ört-basdır etmək istəyirdi: “Ermənistan işğal edilmiş torpaqlara heç bir xarici müşahidəçi buraxmırdı. Ancaq Qərbdən və digər ölkələrdən olan pulla alınmış bəzi siyasətçiləri, ictimai xadimləri gətirirdilər ora göstərsinlər ki, onlar burada necə yaşayırlar. Amma beynəlxalq təşkilatlar buna səssiz qalıb. Birləşmiş Millətlər Təşkilatı, - hansı ki, Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdi ki, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır, - səssiz qalıb, ATƏT səssiz qalıb. Avropa Şurası faktiki olaraq işğalı dəstəkləyib. Avropa Parlamenti işğalçı Ermənistana hər zaman dəstək verib və bu gün də bu belədir. Yəni bax bu, bizə olan münasibətin kiçik bir təsviridir. Görün, biz kimlərlə üzbəüz qalmışdıq, yəni Ermənistan təkbaşına deyildi. Ermənistan təkbaşına olsaydı, bu məsələ çoxdan həll olunardı. Yaxud da ki, o vaxt bu işğala, bu vəhşiliyə, bu soyqırımına görə Ermənistana beynəlxalq sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan həll olunardı. Eləmədilər, bilərəkdən, qəsdən”.

## Avropa institutları, yoxsa ikili standartlar yuvası?

Bəli, Azərbaycanın işğal illərində üzləşdiyi problemlər sırasında Qərb institutlarının ikili standarta söykənən mövqeyi də xüsusi yer tutur. Xüsusilə Avropa Parlamentinin müxtəlif illərdə qəbul etdiyi qətnamələr bu müzakirələrin mərkəzində dayanıb. Məsələn, 2024-cü ilin martında Avropa Parlamenti Ermənistanla daha sıx əlaqələr və ona Avropa Sülh Fondu çərçivəsində dəstək məsələsini müzakirə edib və Ermənistanın hərbi imkanlarının gücləndirilməsinə çağırışlar səsləndirib.

Eyni zamanda, Qarabağda Azərbaycanın suverenliyinin tam bərpa edilməsindən sonra Avropa Parlamentinin Azərbaycana münasibətdə sərt siyasi mövqe nümayiş etdirməsi Bakıda ikili standartlar barədə sualları daha da gücləndirdi. Həmin dövrdə Avropa Parlamenti Azərbaycanla bağlı ayrıca qətnamə qəbul etdi.

Və ya Avropa Şurası Parlament Assambleyası... Azərbaycan işğal faktının aradan qaldırılması, ədalətin bərpası üçün uzun illər AŞPA müstəvisində aktiv müzakrələrin təşkilinə və ya həllinə nail ola bilmədi - qurum bu məsələlərlə məşğul olmadığını və Ermənistan-Azərbaycan münaqişəsinin yalnız ATƏT çərçivəsində müzakirə oluna biləcəyini israr etdi. 44 günlük müharibə və antiterror tədbirlərindən sonra isə AŞPA-nın “üzü” dəyişdi. Etdiyi terrorçu hərəkətləri açıq dillə etiraf edən şəxsləri AŞPA-nın himayə etməsi anlaşılan deyil - bu ona dəlalət edir ki, ya AŞPA həmin terrorçuları məsuliyyətdən yayındırmağa çalışır, ya da azərbaycanlılara qarşı həmin şəxslərin törətdikləri cinayətlərlə bu kimi “beynəlxalq” qurumların birbaşa əlaqəsi mövcuddur. “Canilərə azadlıq tələbi” AŞPA-nın Cənubi Qafqaza yönəlik “yeni siyasi baxış”larının detallarını ortaya qoydu və bu təşkilatın içüzünü nümayiş etdirdi. Bu gün cinayətkarlara “azadlıq” istəyən, insan haqlarını fəaliyyətinin ali prinsipi elan edən AŞPA Azərbaycan əraziləri 30 il işğal altında olduğu dövrdə 1 milyon qaçqın və köçkünün vəziyyəti ilə bağlı susurdu, on minlərlə itkin və əsir düşmüş vətəndaşlarımızın taleyi ilə maraqlanmırdı. Bütün bunlar qurumun “bəşəri dəyərlər” pərdəsi arxasında gizləndiyini və müəyyən ermənipərəstlərin əlində alətə çevrildiyini bir daha təsdiqləyir.

Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, Avropa Şurasında Ermənistana qarşı sanksiya tətbiq edilmədi. Amma biz ki, 2023-cü ilin sentyabrında Qarabağı tam azad etdik, separatçılığın kökünü kəsdik və separatçıları həbs etdik, deməli, ondan dörd ay sonra Avropa Şurası bizə qarşı sanksiya tətbiq etdi: “Bax, onların əsl siması budur. Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər. Elə bil olmayıb bu”.

## Azərbaycan tarix yazdı...

Artıq işğal faktı tam şəkildə aradan qaldırılıb, Azərbaycan bölgədə yeni reallıqlar formalaşdırıb. İşğal tarixindən çıxardığımız ən mühüm nəticə ondan ibarətdir ki, dövlətin təhlükəsizliyi yalnız beynəlxalq sənədlərin mövcudluğu ilə təmin olunmur. Hüquqi sənədlərin arxasında siyasi iradə, iqtisadi güc, diplomatik imkanlar və ən əsası, milli birlik dayanmalıdır. Azərbaycan öz torpaqlarını azad etməklə tarixinin yeni səhifəsini yazdı.

***P.İSMAYILOV***

# “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına



Hörmətli konfrans iştirakçıları!

Sizi Bakıda Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransda səmimi-qəlbdən salamlayıram.

Müstəqil Azərbaycan dövlətinin tərəqqisi və iqtisadi qüdrətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar çərçivəsində müasir audit institutunun formalaşdırılması və inkişafı xüsusi əhəmiyyət kəsb etmişdir. “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi Ümummilli Lider Heydər Əliyevin demokratik idarəetmə prinsiplərinə və bazar iqtisadiyyatının institusional əsaslarının formalaşdırılmasına verdiyi yüksək önəmin, ölkədə maliyyə intizamının və şəffaflığın, hesabatlılığın təmin edilməsinə xidmət edən uzaqgörən və məqsədyönlü dövlət siyasətinin mühüm təzahürü idi. Həmin Qanuna uyğun olaraq yaradılmış Azərbaycan Respublikasının Auditorlar Palatası ötən dövr ərzində ölkədə müstəqil audit sisteminin institusional əsaslarının möhkəmləndirilməsi, peşəkar auditor kadrlarının hazırlanması, şəffaflıq və hesabatlılıq mühitinin inkişaf etdirilməsi, habelə beynəlxalq qabaqcıl təcrübəyə uyğun müasir audit modelinin formalaşdırılması istiqamətində olduqca əhəmiyyətli və zəruri işlər görmüşdür. Nəticə etibarilə, auditor xidmətlərinin əhatə dairəsi xeyli nəzərə çarpacaq dərəcədə genişlənmiş, maliyyə hesabatlarının etibarlılığının təmin edilməsində, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və kölgə iqtisadiyyatının azaldılmasında audit institutunun rolu daha da artmışdır.

Auditorlar Palatasının yubileyi münasibətilə təşkil olunmuş beynəlxalq konfransın ölkəmizdə auditor peşəsinin son otuz ildə keçdiyi inkişaf yolunun elmi və praktik müstəvidə təhlili, auditor fəaliyyətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi, peşəkar özünüidarəetmə institutunun möhkəmləndirilməsi, keyfiyyətə nəzarət mexanizmlərinin inkişaf etdirilməsi və beynəlxalq audit standartlarının tətbiqi ilə bağlı mühüm məsələlərin müzakirəsi baxımından əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Eyni zamanda, konfrans çərçivəsində audit fəaliyyətinin rəqəmsal transformasiya şəraitində yeni inkişaf istiqamətlərinin, böyük verilənlərin analitikası və süni intellekt texnologiyalarının audit prosesinə inteqrasiyasının, auditin ənənəvi uyğunluq funksiyasından kənara çıxaraq strateji tərəfdaş və dəyər yaradan institut kimi rolunun genişləndirilməsinin, habelə peşə etikası və ictimai etimad prinsiplərinin möhkəmləndirilməsinin müzakirə olunması müasir dövrün tələbləri baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı və texnoloji transformasiyanın geniş vüsət aldığı müasir şəraitdə audit fəaliyyətinin yeni keyfiyyət mərhələsinə yüksəldilməsi hər bir ölkə qarşısında duran mühüm vəzifələrdən biridir. Bu xüsusda audit fəaliyyətinin rəqəmsal əsaslarda təşkili, süni intellekt və müasir məlumat analitikası alətlərinin tətbiqinin genişləndirilməsi, audit proseslərində şəffaflığın və operativliyin artırılması, habelə beynəlxalq peşəkar standartlara uyğun innovativ audit metodologiyalarının inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi Auditorlar Palatasının fəaliyyətinin səmərəliyi nöqteyinəzərindən xüsusi önəm daşıyır. Bununla yanaşı, auditor peşəsinin nüfuzunun və ona olan ictimai etimadın qorunması, yüksək peşəkarlıq və etik davranış prinsiplərinin daha da möhkəmləndirilməsi, habelə peşəkar kadr potensialının gücləndirilməsi qarşıda duran əsas prioritetlər sırasındadır.

Əminəm ki, konfrans çərçivəsində aparılacaq müzakirələr və irəli sürüləcək təşəbbüslər ölkəmizdə auditor fəaliyyətinin daha da təkmilləşdirilməsinə, auditdə rəqəmsal transformasiyanın və süni intellektin tətbiqinə, beynəlxalq əməkdaşlığın genişlənməsinə, audit institutunun nüfuzunun yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə Auditorlar Palatasının kollektivini və konfrans iştirakçılarını bir daha təbrik edir, tədbirin işinə uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 sentyabr 2026-cı il**

# Sivilizasiyaların, mədəniyyətlərin və dəyərlərin qovuşduğu məkan

## Qlobal dünyaya mesajımız dəyişməzdir: sülh, əməkdaşlıq və sabitlik...

Azərbaycan tarixən istər sivilizasiyalararası, istər dinlərarası, istərsə də mədəniyyətlərarası münasibətlərin tənzimlənməsində və bu münasibətlərin qarşılıqlı inteqrasiyasında mühüm rol oynayıb. Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu coğrafiyada yerləşən ölkəmiz əsrlər boyu müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin bir-birini zənginləşdirdiyi məkan kimi formalaşıb. Bu baxımdan Azərbaycan yalnız coğrafi mövqeyi ilə deyil, həm də tarixən yaratdığı tolerant və multikultural mühitlə fərqlənib.

Azərbaycan mədəniyyəti yüzillər ərzində ümumdünya mədəni irsinin mühüm tərkib hissəsinə çevrilib. Ədəbi fikir, fəlsəfə, musiqi, memarlıq və incəsənət sahələrində yetişən şəxsiyyətlərimiz yalnız öz dövrünün deyil, bütövlükdə dünya mədəniyyətinin inkişafına təsir göstəriblər. Nizami Gəncəvinin humanizm və insan fəlsəfəsi, İmadəddin Nəsiminin azad düşüncə və kamil insan ideyaları, Məhəmməd Füzulinin ədəbi-fəlsəfi irsi Azərbaycan mədəniyyətinin miqyasını göstərən nümunələrdir. Bu irs zaman keçdikcə milli sərhədləri aşaraq dünya mədəniyyətinin ümumi sərvətinə çevrilib.

Azərbaycanın tarixi missiyası yalnız keçmişdə yaratdıqları ilə məhdudlaşmır. Müasir dövrdə də ölkəmiz müxtəlif mədəniyyətlərin dialoqunun, dini və sivilizasiyalararası anlaşmanın təşviqinə xüsusi diqqət yetirir. Bakı beynəlxalq humanitar forumlara, mədəniyyətlərarası dialoq tədbirlərinə və müxtəlif sivilizasiyaların nümayəndələrini bir araya gətirən platformalara ev sahibliyi edir. Bu, Azərbaycanın tarixi ənənələrini müasir dövlət siyasəti ilə birləşdirdiyini göstərir.





### Türk dünyası və Qafqaz birliyi: iki böyük məkanın qovuşduğu Odlar Yurdu

Azərbaycan həm Türk dünyasının, həm də Qafqazın ayrılmaz hissəsidir. Bu iki coğrafi və mədəni məkanın kəsişməsində yerləşməsi ölkəmizə tarix boyu xüsusi missiya qazandırıb. Xalqımız öz mədəni kimliyini, adət-ənənələrini və tarixi yaddaşını qoruyaraq Türk dünyasının ümumi mədəni xəzinəsinə mühüm töhfələr veriblər. Bakı isə bu prosesdə hər zaman xüsusi rol oynayıb.

Müasir dövrdə Azərbaycanın Türk dünyası ilə əlaqələri yalnız mədəni münasibətlərlə məhdudlaşmır. Türk Dövlətləri Təşkilatı çərçivəsində siyasi, iqtisadi, nəqliyyat, humanitar və mədəni əlaqələrin inkişafı Bakı üçün strateji əhəmiyyət daşıyır. Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsini və ortaq tarixi-mədəni dəyərlərin qorunmasını dəstəkləyir.

Azərbaycanın unikallığı isə onun yalnız türk dünyasının bir hissəsi olmaqla kifayətlənməməsidir. Ölkəmiz eyni zamanda Qafqaz bölgəsinin mühüm aktorudur. Bakı bu iki mədəni platformanın, Türk və Qafqaz məkanlarının qarşılıqlı əlaqələndirilməsi baxımından özünəməxsus körpü rolunu oynayır. Burada türk kimliyi ilə Qafqazın çoxmədəniyyətli mühiti bir-birinə zidd deyil, əksinə, bir-birini tamamlayan dəyərlər kimi çıxış edir. Azərbaycanın bu xüsusiyyəti onu regional dialoq və əməkdaşlıq baxımından əhəmiyyətli mərkəzə çevirir. Prezident İlham Əliyev çıxışında bildirib ki, bizim tədbirlərdə bir çox ölkələrdən dini liderlər iştirak edirlər: “Yəni bu, birliyin nümunəsidir. Təbii ki, burada Azərbaycanın xüsusi rolu var. Çünki Azərbaycan həm Türk dünyasının bir parçasıdır, həm də Qafqaz ölkəsidir. Bizim ölkəmizin tarixinə baxanda hər şey açıq-aydın görünür”.

Dövlət başçısı qeyd edib ki, bu bir daha göstərir ki, Türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır.

### Dahi şəxsiyyətlərimiz milli tariximizin ən böyük mənəvi sərvətlərindəndir

Vurğulandığı kimi, Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi dahilər milli tariximizin ən böyük mənəvi sərvətlərindəndir. Bu şəxsiyyətlər müxtəlif tarixi dövrlərdə ədəbi, fəlsəfi və ictimai fikrin inkişafına mühüm təsir göstərib, türk-islam mədəniyyətinin zənginləşməsinə böyük töhfələr veriblər. Onların yaradıcılığı yalnız Azərbaycan ədəbiyyatı və fəlsəfəsi çərçivəsində deyil, ümumbəşəri dəyərlər baxımından da əhəmiyyət daşıyır.

Bu böyük irsin qorunması və dünyada tanıdılması Azərbaycan dövlətinin mədəni siyasətinin ən mühüm istiqamətlərindəndir. Tarixi şəxsiyyətlərimizin yubileylərinin keçirilməsi, əsərlərinin müxtəlif dillərə tərcüməsi, beynəlxalq elmi və mədəni tədbirlərin təşkili bu istiqamətdə atılan addımlardır. Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ilin Azərbaycanda “Nəsimi ili” elan edilməsi də dövlətin milli-mədəni irsə münasibətinin mühüm göstəricisi oldu. Beləliklə, Azərbaycan öz dahilərinin irsini yalnız qorumaqla kifayətlənmir, onu dünya mədəniyyətinin bir hissəsi kimi gələcək nəsillərə çatdırır.

Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən bildirib ki, biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxıb: “Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün İslam aləmi üçün çox böyük dəyərdir”.

### İslam həmrəyliyi və Azərbaycanın mesajı...

Son illərdə dünyada, xüsusilə müsəlman aləmində baş verən proseslər İslam həmrəyliyinin əhəmiyyətini daha da artırır. Müxtəlif siyasi və sosial ziddiyyətlərin mövcud olduğu bir dövrdə müsəlman ölkələri arasında qarşılıqlı anlaşmanın, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi mühüm məsələlərdən biridir. Azərbaycan isə bu istiqamətdə olduqca fəaldır - ölkəmiz yalnız bəyanatlarla kifayətlənmir, konkret layihə və təşəbbüslərlə çıxış edir.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı və ICESCO ilə əməkdaşlığı bunun mühüm nümunələrindəndir. 2017-ci ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları da ölkəmizin bu sahədəki fəaliyyətinin diqqətçəkən nümunəsi oldu. “İslam həmrəyliyi - ümumi məqsədlər naminə” yanaşması müxtəlif müsəlman ölkələrindən olan insanları idman, mədəniyyət və dostluq platformasında bir araya gətirdi.

Bakı müxtəlif beynəlxalq tribunalar vasitəsilə müsəlman dünyasının problemlərinin dialoq və əməkdaşlıq yolu ilə həll edilməsinin vacibliyini dəfələrlə vurğulayıb. Ölkəmizin yanaşmasında İslam həmrəyliyi digər dinlərə və mədəniyyətlərə qarşı yönəlmiş qapalı model deyil. Əksinə, bu həmrəylik qarşılıqlı hörmətə, əməkdaşlığa və sülhə xidmət edən prinsip kimi təqdim olunur. Dövlət başçımız çıxışında qeyd edib ki, biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək: “Gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək. Dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi hesab edirəm ki, təsadüfi deyil. Düzdür, bu qərar bir qədər əvvəl qəbul edilmişdir, amma, əslində, çox düzgün bir qərardır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Əminəm ki, gələn il Azərbaycanda keçiriləcək bu Zirvə Görüşünün çox gözəl nəticələri olacaq. Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə Görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, İslam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik”.

### Beynəlxalq dialoq məkanı...

Bəli, Azərbaycanın tarixən formalaşmış mədəni kimliyi onu dünyada sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkanlardan birinə çevirib. Bu coğrafiyada müxtəlif xalqların və dini icmaların əsrlər boyu birgə yaşaması ölkənin tolerantlıq və multikulturalizm ənənələrinin formalaşmasına mühüm təsir göstərib. Azərbaycan üçün bu dəyərlər yalnız tarixin bir hissəsi deyil, bu gün də davam etdirilən dövlət siyasətinin mühüm istiqamətidir. Bu gün Bakı həm regional, həm də beynəlxalq miqyasda dialoq məkanı kimi çıxış edir. Ölkəmizin əsas mesajı isə dəyişməzdir: fərqliliklər qarşıdurma deyil, əməkdaşlıq üçün imkan yaratmalıdır. Azərbaycan sabitliyin, inkişafın və dincliyin tərəfdarıdır. Münaqişələrin sülh yolu ilə həlli, xalqlar arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi və mədəniyyətlərin bir-birini zənginləşdirməsi Azərbaycanın dünyaya verdiyi əsas mesajlardan biridir.

*Pərviz SADAYOĞLU*



# Azərbaycan - Türkiyə: Gələcəyə hesablanan hədəflər

Azərbaycan və Türkiyə əsrlər boyu ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış möhkəm qardaşlıq telləri ilə bir-birinə bağlı olan iki dost və qardaş ölkədir. “Bir millət, iki dövlət” prinsipi bu münasibətlərin təməlini təşkil edərək, təkcə regionda deyil, bütün dünyada dövlətlərarası əməkdaşlığın, səmimi tərəfdaşlığın və qarşılıqlı dəstəyin bariz nümunəsinə çevrilib. Hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə və milli-mənəvi irsə malik olmaqla yanaşı, zamanın sınaqlarından çıxaraq dostluq və qardaşlıq münasibətlərini bu gün də eyni sədaqətlə yaşatmaqda davam edir.

## İki qardaş ölkə hər zaman bir-birinin yanındadır

Bu səmimi, qırılmaz əlaqələr iki ölkənin siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə sıx əməkdaşlığı ilə yanaşı, ortaq mədəni dəyərlərin qorunması və inkişaf etdirilməsi istiqamətində də özünü göstərir. Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşərək, regional və qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda, hər iki dövlət Türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfə verir. Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib.

Hazırda dünyada, o cümlədən regionumuzda mürəkkəb proseslər davam edir. Yeni dünya nizamının formalaşdığı bir zamanda Azərbaycan xarici siyasət kursunda dost və müttəfiq ölkələrlə əlaqələri daha da gücləndirməkdədir. Təbii ki, bu sırada qardaş və strateji müttəfiq olan Türkiyə ilə münasibətlər xüsusi yer tutur. Regionun güclü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və ikitərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər, daim müzakirələr aparırlar. Bu baxımdan Türkiyənin xarici işlər naziri Hakan Fidanın ölkəmizə son səfəri xüsusi vurğulanmalıdır.

## Hakan Fidanın ölkəmizə səfəri...

Sentyabrın 15-də Prezident İlham Əliyevin Hakan Fidanla görüşü zamanı Azərbaycan-Türkiyə qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın “bir millət, iki dövlət” prinsipi əsasında daha da möhkəmləndiyi məmnunluqla qeyd edilib. Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, alternativ enerji istiqamətində beynəlxalq bazarlara yeni çıxış yolları ilə bağlı fikir mübadiləsi aparılıb. Eləcə də, ölkələrimizin logistika baxımından əhəmiyyəti, o cümlədən Avropa ilə Asiya arasında mühüm körpü rolu oynadıqları vurğulanıb, beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizin əlaqələndirilməsinin önəmi qeyd olunub.

İki ölkənin XİN başçıları Ceyhun Bayramovla Hakan Fidanın görüşündə isə dövlətlərimizin BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, AQEM, İqtisadi Əməkdaşlıq Təşkilatı, D-8 və digər regional və beynəlxalq platformalarda da sıx əməkdaşlıq etdiyi diqqətə çatdırılıb. Bu çərçivədə, Türk Dövlətləri Təşkilatının ortaq tarix, dil və mədəni dəyərlər əsasında bir araya gələn qardaş dövlətlərin ailəsi kimi Azərbaycan və Türkiyə üçün xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.



## Bölgədə kommunikasiyaların bərpası diqqət mərkəzindədir

Məlumdur ki, ölkələrimiz arasında enerji, nəqliyyat və ticarət sahələrində qurulan əlaqələr də münasibətlərin əsas sütunlarından biri olub. 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri - xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri, daha sonra Cənub Qaz Dəhlizi Azərbaycanın Avropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji tranzit mərkəzinə çevirib. Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlığını və regional mövqeyini gücləndirib.

Hazırda ölkələrimiz yeni layihələr üzərində işləyir. Nazirlərin görüşündə də bölgədə nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası, yeni enerji bağlantılarının yaradılması və regional iqtisadi əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə, Orta Dəhlizin inkişafı, tranzit imkanlarının artırılması və qarşılıqlı iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Eləcə də Azərbaycanın əsas hissəsindən onun Naxçıvan Muxtar Respublikasına, daha sonra Türkiyəyə və regionun digər istiqamətlərinə bağlantıların inkişaf etdirilməsi üzrə işlərin regionda uzunmüddətli sülh, sabitlik və əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyət daşıdığı bildirilib.

Nazirlərin mətbuat konfransında isə C.Bayramov qeyd edib ki, Azərbaycanın əsas hissəsindən yeni nəqliyyat infrastrukturunun yaradılması istiqamətində işlər sürətlə davam edir: “Azərbaycanın əsas hissəsindən Ermənistan sərhədi istiqamətində yol tikintisinin təxminən 95 faizi artıq tamamlanıb. Dəmir yolunun icra səviyyəsi isə təxminən 75 faiz təşkil edir. Hər iki layihənin Azərbaycanın əsas hissəsində 2027-ci ilin ilk yarısında başa çatdırılması nəzərdə tutulur”.

H.Fidan qeyd edib ki, Orta Dəhlizin həyata keçirilməsində Azərbaycan və Türkiyə əhəmiyyətli rol oynayır. Bu layihə Türkiyəni Xəzər dənizi vasitəsilə Türk dünyası ilə birləşdirir. Onun sözlərinə görə, hazırda Qars-Dilucu dəmir yolu layihəsinin həyata keçirilməsi istiqamətində işlər aparılır: “2028-ci ilin sonuna qədər bu işlərin yekunlaşdırılması planlaşdırılır. Bundan sonra Azərbaycandan yola çıxan qatarların Türkiyəyə birbaşa keçidi mümkün olacaq”.

## 110 bənddən ibarət yol xəritəsi...

Görüşdə verilən vacib bəyanatlardan biri də Şuşa Bəyannaməsi və gələcək planlarla bağlıdır. C.Bayramovun sözlərinə görə, elə bir sahə yoxdur ki, Şuşa Bəyannaməsində öz əksini tapmasın. Bütün sahələr üzrə əməkdaşlığımız mövcuddur və bu əməkdaşlığın təməlləri kifayət qədər genişdir. Azərbaycan ilə Türkiyə arasındakı əməkdaşlıq, yalnız regional məsələlərlə məhdudlaşmır. Belə ki, Azərbaycan, Türkiyə və hər hansı Afrika ölkəsi arasında üçtərəfli formatda əməkdaşlığın həyata keçirilməsi üçün də geniş imkanlar mövcuddur. Bundan əlavə,  2025-ci ilin dekabr ayında Azərbaycan və Türkiyə arasında Hökumətlərarası Komissiyanın iclasının nəticəsi olaraq iki ölkə arasında yalnız iqtisadi sahəni əhatə edən 110 bənddən ibarət yol xəritəsi qəbul olunub. Bu yol xəritəsi qarşıdakı illərə hesablanmış mühüm sənəddir. Göründüyü kimi, hazırda aparılan müzakirələr və imzalanan sənədlər təkcə bugünə deyil, gələcək perspektivə hesablanıb.

Azərbaycanla Türkiyə arasında hərbi və təhlükəsizlik sahəsində qurulan əməkdaşlıq yalnız iki ölkənin milli maraqları çərçivəsində deyil, bütövlükdə, regionun sabitliyinin, təhlükəsizliyinin təmin olunması baxımından da xüsusi önəm daşıyır. Bu tərəfdaşlıq əsrlər boyu qardaş xalqlarımızın ortaq iradəsinin və siyasi uzaqgörənliyinin nəticəsi kimi müasir dövrdə yeni məzmun və mahiyyət qazanıb. İki dövlət müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT, NATO və İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlıq edərək, regional və qlobal təhlükəsizlik təşəbbüslərində birgə mövqe sərgiləyir. Xüsusilə Azərbaycanın 30 il davam edən işğala son qoyduğu İkinci Qarabağ müharibəsi dövründə Türkiyənin göstərdiyi birmənalı siyasi dəstək bu əlaqələrin sarsılmazlığını və qardaşlığın gücünü bütün dünyaya nümayiş etdirdi. Bununla yanaşı, hərbi əməkdaşlığın praktiki istiqaməti də daim genişlənməkdədir. Ölkəmizin müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Azərbaycanın və Türkiyənin Silahlı Qüvvələrinin birgə iştirakı hər iki ordunun döyüş hazırlığının artırılmasına, koordinasiyanın güclənməsinə və regional təhlükəsizliyin təmininə mühüm töhfə verir. Bu təlimlər yalnız ikitərəfli səviyyədə deyil, həm də NATO ilə əməkdaşlıq çərçivəsində aparılan işlərin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Bundan əlavə, müdafiə sənayesi sahəsində birgə layihələr, müasir silah sistemlərinin tədarükü və texniki təchizatın təkmilləşdirilməsi istiqamətində atılan addımlar qardaş ölkələrimizin müdafiə qabiliyyətinin daha da artırılmasına xidmət edir. Bu əməkdaşlıq Azərbaycanın və Türkiyənin regional təhlükəsizlik məsələlərindəki həmrəyliyini gücləndirməklə yanaşı, eyni zamanda, Cənubi Qafqaz və Orta Asiya regionlarında sülhün, sabitliyin təmin olunmasında mühüm rol oynayır.

Bütövlükdə, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə mövcud gərginlik, xüsusilə İran ətrafında yaranmış vəziyyət iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün birgə diplomatik fəaliyyət həyata keçirir. Bu baxımdan, Hakan Fidanın ölkəmizə səfəri Azərbaycan-Türkiyə əlaqələrinin təkcə simvolik deyil, institusional səviyyədə də davamlı və çoxqatlı xarakter daşıdığını göstərir. Energetika, logistika və təhlükəsizlik məsələlərinin paralel müzakirə olunması iki ölkənin regional layihələrdə əlaqələndirilmiş mövqe nümayiş etdirməyə davam etdiyinə işarədir. Bu cür davamlı yüksək səviyyəli təmaslar Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin təkcə bəyanat xarakterli deyil, praktiki əməkdaşlıq mexanizmləri ilə də dəstəkləndiyinin göstəricisidir. Səfər bir daha təsdiqlədi ki, iki qardaş dövlət arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əlaqələr ardıcıl və planlı şəkildə dərinləşməkdə davam edir.

***Nardar BAYRAMLI***

# Qərbi Azərbaycan İcmasından çağırış




### Erməni cəmiyyəti keçmişin səhvlərini təkrarlamamalı, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdlərinə son qoymalıdır

Ermənistanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə xarici diplomatların son səfəri ətrafında əsassız hay-küy kampaniyası səngiməK bilmir. İki ölkə arasında sülh və normallaşma prosesini zədələyən bu cür reaksiya erməni cəmiyyətinin bədnam “miatsum” siyasətindən tam şəkildə imtina etmək, Azərbaycanın suverenliyini qəbul etmək və dinc qonşuluq şəraitində yaşamaq məsələsində hələ də ciddi tərəddüdlərinin olduğunu göstərir. Ermənistan hakimiyyətinin irəli sürdüyü “Real Ermənistan” konsepsiyası faktiki olaraq, ciddi böhran keçirir.

Bu fikirlər Qərbi Azərbaycan İcmasının (QAİ) yaydığı bəyanatda öz əksini tapıb.

Bəyanatda qeyd olunub ki, son günlər bir daha erməni cəmiyyətində saxta tarix, saxta qədimlik, milli müstəsnalıq üzərində qurulan yanaşmaların yenidən önə çıxmasını müşahidə edirik. Böyük tarixə, zəngin mədəni irsə malik Azərbaycan xalqının tarixinin, mədəniyyətinin inkar edilməsi kökündən yanlış və təhlükəli siyasətdir. Sentyabrın 15-də bir sıra xarici ölkələrdən olan din xadimlərini qəbul edən Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqı dünya mədəniyyətinə Nizami Gəncəvi, Xaqani Şirvani, Nəsimi, Seyid Yəhya Bakuvi, Şah İsmayıl Xətai, Füzuli kimi dahi şəxsiyyətlər və mütəfəkkirlər bəxş edib.

Məhz bu kimi zəhərli ideologiya, yanaşmalar Ermənistanı, xüsusilə son 30 il ərzində, “miatsum” siyasətinə sürükləmiş, Qərbi azərbaycanlıların Ermənistandan deportasiyasına, Azərbaycan ərazilərinin işğalına, məqsədli şəkildə mədəni irsin, o cümlədən məscidlərin dağıdılmasına zəmin yaradıb. Bu siyasətin Ermənistan dövləti və erməni xalqı üçün hansı nəticələrə gətirib çıxarması hər kəsə aydındır.

Bəyanatda Qərbi Azərbaycan İcması erməni cəmiyyətini keçmişin səhvlərini təkrarlamamağa, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdlərinə son qoymağa, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü tam şəkildə qəbul etməyə, habelə mütəmadi olaraq Azərbaycanda haqlı narazılıq yaradan təxribatçı əməllərdən çəkinməyə çağırıb.

# Pekində 13-cü Syanşan Forumu keçirilir

Çinin paytaxtı Pekində “Sabitlik üzrə konsensusun əldə edilməsi, təhlükəsizliyin idarə edilməsinin birgə inkişafı” devizi ilə 13-cü Syanşan Forumu keçirilir.



AZƏRTAC xəbər verir ki Çinin Milli Müdafiə Nazirliyinin və Hərbi Elmlər Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən yüksəksəviyyəli təhlükəsizlik forumunda 100-dən çox ölkədən nümayəndələr, o cümlədən 60-dan çox nazir və hərbi lider, beynəlxalq və regional təşkilatların, analitik mərkəzlərin nümayəndələri, yüksəkrütbəli hərbçilər, hərbi və təhlükəsizlik məsələləri üzrə nüfuzlu ekspertlər iştirak edirlər. Azərbaycanı nüfuzlu tədbirdə müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

Forum çərçivəsində təhlükəsizlik, qlobal idarəetmə və regional məsələlər, hərbi texnologiya və beynəlxalq hüququn aliliyi də daxil olmaqla, geniş sahələri əhatə edən 4 plenar iclas və 8 paralel sessiya da keçirilir. Forumda dünyanı narahat edən münaqişə və təhlükəsizlik problemləri, o cümlədən Ukrayna böhranı və Yaxın Şərqdəki problemlər də daxil olmaqla, həssas mövzularda qapalı seminarlar da keçiriləcək.

Açılış mərasimində Çinin milli müdafiə naziri Don Cun, BMT Baş katibinin sülh əməliyyatları üzrə müavini Jan Pyer Lakrua, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Nurlan Yermekbayev, ASEAN-ın Baş katibi Kao Kim Hourn və başqaları ölkələr arasında gərginliyin artdığı



və səmimi dialoq imkanlarının getdikcə məhdudlaşdığı bir vaxtda Syanşan Forumunun əhəmiyyətindən danışdılar.

Qeyd edək ki, 2006-cı ildən keçirilən ənənəvi Syanşan Forumu yüksəkrütbəli hərbçilərin, dövlət rəsmilərinin, tədqiqatçıların, ekspertlərin iştirakı ilə dünyada, xüsusən də Asiya-Sakit okean regionunda təhlükəsizlik məsələlərinin müzakirəsi üçün platforma rolunu oynayır.

# YAP bundan sonra da Azərbaycanın inkişafının və yeni qələbələrinin siyasi avanqardı kimi çıxış edəcək





Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, büstün önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsindən, partiyanın ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyindən bəhs edib. Hesabat məruzəsində rayon təşkilatının fəaliyyətinin partiyanın müəyyən etdiyi prioritet istiqamətlər əsasında təşkil olunduğu qeyd olunub. Ərazi partiya təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi, üzvlərin ictimai-siyasi proseslərdə fəal iştirakının təşviqi, eləcə də gənclərin və qadınların partiya fəaliyyətinə cəlb olunması ilə bağlı müxtəlif layihələrin reallaşdırıldığı diqqətə çatdırılıb.

Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ilin noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması müasir dövlətçilik tariximizdə əlamətdar hadisədir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyanın ölkəmizi daim irəliyə apararaq əhəmiyyətli uğurlara imza atdığı, ümumxalq etimadını qazandığı vurğulanıb. Qeyd olunub ki, həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, bütün istiqamətlərdə sürətli inkişafa nail olunub, Azərbaycanın siyasi-iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq münasibətlər sistemində nüfuzu artıb.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından bəhs edib. O diqqətə çatdırıb ki, dövlət başçısının müstəqil və uzaqgörən siyasəti nəticəsində həm ölkəmizdə, həm də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb.




Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov çıxışında Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasını müasir tariximizin ən mühüm hadisəsi və möhtəşəm nailiyyəti kimi dəyərləndirib. O, yeni mərhələdə ölkəmizin qarşısında strateji hədəflərin dayandığını, Prezident İlham Əliyevin rəhbərliyi ilə milli məqsədlərin bundan sonra da uğurla reallaşdırılacağına əminliyini ifadə edib.

Şəhid İsmayıl Kərimlinin atası Ceyhun Kərimli, ərazi partiya təşkilatının sədri, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şöbə müdiri Gülbəniz Əliyeva, "Bakı Tikiş Evi" ASC-nin sədr müavini Elnur Rəhimov və Azərbaycan Dillər Universitetinin üçüncü kurs tələbəsi Sevinc Eyyubzadə Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin və azərbaycançılıq ideologiyasının gənc nəslə çatdırılması, milli-mənəvi dəyərlərin qorunması və partiya üzvlərinin ictimai proseslərdə iştirakının genişləndirilməsi məqsədilə görülən işlərin əhəmiyyətindən bəhs ediblər.

Konfransda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov qeyd edib ki, 2026-cı il sentyabrın 7-dən etibarən Yeni Azərbaycan Partiyasının respublikanın bütün bölgələrini əhatə edən rayon və şəhər təşkilatları tərəfindən hesabat konfransları keçirilir, partiyanın VII qurultayından sonra qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görülmüş işlərə dair məruzələr dinlənilir, əldə olunmuş nəticələr təhlil edilərək geniş müzakirələr aparılır. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının konfransı da istər hesabat dövründə həyata keçirilən fəaliyyətin nəticələrinin qiymətləndirilməsi, istərsə də gələcəyə yönəlik hədəflərlə bağlı fikir mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyətə malikdir.

Tahir Budaqov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Zəfərə imza ataraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə mütləq suverenliyini bərpa edən Azərbaycan əldə etdiyi müvəffəqiyyətlərlə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur: "Milli maraqlara əsaslanan və müasir çağırışlara cavab verən mütərəqqi siyasəti ilə ölkəmizin davamlı inkişafını təmin edən Prezident İlham Əliyev Azərbaycanın qüdrətini və nüfuzunu daha da artırmış, onun regiondakı lider mövqeyini möhkəmləndirmiş, dünyada dialoq və əməkdaşlıq məkanı, etibarlı və konstruktiv tərəfdaş imicini gücləndirmişdir. Bu gün sıralarında 800 minə yaxın vətəndaşımızı birləşdirən, öz fəaliyyətində dialoq, əməkdaşlıq, qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərinə söykənən, plüralizmi təşviq edərək siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası da müasir çağırışları və hədəfləri əsas götürərək partiyanın Proqram və Nizamnaməsi çərçivəsində, habelə İdarə Heyətinin qəbul etdiyi qərarlara uyğun məqsədyönlü fəaliyyət həyata keçirir. VII qurultaydan sonra müəyyən olunmuş vəzifələrin icrası istiqamətində ardıcıl tədbirlər reallaşdırılmış, partiyanın çevik və səmərəli fəaliyyətini təmin etmək məqsədilə onun normativ-hüquqi bazasının möhkəmləndirilməsi, partiya üzvlərinin uçot sistemində tam dəqiqliyin təmin edilməsi və məlumatlara nəzarətin gücləndirilməsi, maliyyə intizamının möhkəmləndirilməsi, Heydər Əliyev ideyalarının və azərbaycançılıq ideologiyasının təşviqi, Prezident İlham Əliyevin müasir dövlətçilik strategiyasının, Yeni Azərbaycan Partiyasının dəyərlərinin və fəaliyyət prinsiplərinin təbliği, milli maraqların qorunması üçün partiya diplomatiyasının yeni reallıqlara uyğun davam etdirilməsi xüsusi diqqət mərkəzində olmuş, eləcə də Yeni Azərbaycan Partiyası ilə 10 siyasi partiya arasında əməkdaşlıq sazişləri imzalanmış, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı, Mərkəzçi Demokrat İnternasionalı kimi beynəlxalq siyasi platformalarda partiyanın fəal iştirakı təmin edilmiş, YAP-ın ev sahibliyi və tərəfdaş siyasi partiyaların iştirakı ilə 11 beynəlxalq konfrans keçirilmişdir".

Natiq qeyd edib ki, hesabat dövründə yerli təşkilatların, o cümlədən YAP Nəsimi rayon təşkilatının fəaliyyətinin Nizamnamə tələbləri əsasında qurulması, maddi-texniki bazasının möhkəmləndirilməsi və digər istiqamətlərdə əsaslı işlər görülmüş, tədbirlərin müxtəlifliyini və sayını artırmaqla mütəşəkkil qaydada keçirilməsi, qərarların icrası, vətəndaş müraciətlərinə baxılmanın qaydalara uyğun aparılması diqqətdə saxlanılmışdır. Onun sözlərinə görə, YAP Nəsimi rayon təşkilatının sıralarında hazırda 27 mindən artıq üzv birləşmişdir ki, onlardan 15 mindən çoxu qadınlar, 3000-dən çoxu isə gənclərdir: "Bu böyük potensial rayon təşkilatının qarşısında duran bütün vəzifələrin mütəşəkkil qaydada və yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir. Rayon təşkilatı bundan sonra da fəaliyyətini müasir dövrün tələbləri və çağırışları əsasında davam etdirərək ideoloji işin gücləndirilməsi, ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi, partiya sıralarının genişləndirilməsi və digər istiqamətlərdə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməli, ölkəmizdə sabitlik və həmrəyliyin qorunmasına, xalq-iqtidar birliyinin daha da möhkəmlənməsinə öz töhfəsini verməlidir".

Tahir Budaqov əlavə edib ki, bu gün Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan dövləti öz milli maraqlarını rəhbər tutaraq müstəqil siyasətini uğurla davam etdirir, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir: "Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyası bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə, əzmlə, inamla və şərəflə yerinə yetirməklə milli tərəqqiyə mühüm töhfələr verəcək, Azərbaycanın inkişafının və yeni qələbələrinin siyasi avanqardı kimi çıxış edəcəkdir. Ümummilli Liderimizin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Dünən Azərbaycan naminə siyasi məsuliyyəti öz üzərinə götürən Ulu Öndərin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən YAP sabah da ümumxalq partiyası kimi fəaliyyətini uğurla davam etdirərək Azərbaycana möhtəşəm nailiyyətlər qazandıracaqdır. Hər birinizə Heydər Əliyev ideyalarına sadiq qalmaqla Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ətrafında sıx birləşərək həyata keçirdiyiniz şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm".

Konfransda YAP Nəsimi rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP yeni dövrün çağırışlarına uyğun olaraq fəaliyyətini davam etdirir




Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) İmişli rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev hesabat məruzəsi ilə çıxış edib. O diqqətə çatdırıb ki, Azərbaycanın XX əsrin sonlarında yaşadığı mürəkkəb və taleyüklü dövrdə, dövlətçiliyimizin ağır sınaqlarla üzləşdiyi bir vaxtda Ümummilli Lider Heydər Əliyevin öndərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurətdən irəli gəlmiş və xalqımızın gələcək inkişaf yolunu müəyyənləşdirmişdir. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və ardıcıl siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Əldə edilən siyasi və diplomatik uğurlar Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun daha da yüksəlməsinə zəmin yaradır.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev ölkədə həyata keçirilən genişmiqyaslı islahatlar və quruculuq işlərindən danışaraq, regional inkişaf proqramlarının İmişli rayonunda da uğurla həyata keçirildiyini vurğulayıb. O, həmçinin partiya fəallarının bu sahədə görülən işlərə dəyərli töhfələr verdiklərini xüsusi qeyd edib.

Milli Məclisin deputatı Səyyad Aran bildirib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən dövlətçilik prinsiplərinə, milli maraqlara və xalqın rifahına xidmət edən siyasi xəttini ardıcıllıqla davam etdirir. O qeyd edib ki, partiya azərbaycançılıq ideologiyasını fəaliyyətinin əsas istiqamətlərindən biri kimi rəhbər tutmaqla milli birlik və həmrəyliyin möhkəmləndirilməsinə, cəmiyyətin müxtəlif təbəqələri arasında sağlam ictimai münasibətlərin formalaşmasına mühüm töhfələr verir.

Sonra partiya veteranı Şahsuvar Əmirahov, gənc partiya fəalı Nuray İmanova və "Ə.Əliyev" ərazi partiya təşkilatının sədri İsrafil Məmmədov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev vurğulayıb ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən qarşısına qoyduğu məqsəd və vəzifələrin həyata keçirilməsi istiqamətində ardıcıl fəaliyyət göstərərək xalqın etimadını qazanıb. O, partiyanın bundan sonra da qarşıda duran bütün vəzifələri uğurla yerinə yetirmək əzmində olduğuna əminlik ifadə edib.

Konfransda YAP İmişli rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Bərdə rayon təşkilatının XII konfransı keçirilib




Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin müdrik ideyaları, uzaqgörən siyasəti və qətiyyətli mövqeyi sayəsində əsası qoyulmuş Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yolu onun cəmiyyətdə böyük nüfuza sahib olduğunu bir daha təsdiqləyir. Qeyd edib ki, YAP Bərdə rayon təşkilatı partiyanın VII qurultayından ötən dövr ərzində ölkədə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin təbliği, milli-mənəvi dəyərlərin qorunması, gənclərin vətənpərvərlik ruhunun artırılması və digər istiqamətlərdə öz fəaliyyətini genişləndirərək davam etdirib.

Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev Yeni Azərbaycan Partiyasının əsas fəaliyyət istiqamətinin dövlətçiliyimizin qorunaraq möhkəmləndirilməsi, milli maraqların bütün sferalarda müdafiəsi və xalqımızın firavanlığının təmin edilməsi olduğunu diqqətə çatdırıb. Əlavə edib ki, Yeni Azərbaycan Partiyası ölkəmizdə gedən bütün ictimai-siyasi proseslərdə aparıcı siyasi qüvvə olmaqla yanaşı, regionun da ən böyük siyasi təşkilatıdır. Vidadi İsayev çıxışında Bərdə rayonunun dayanıqlı inkişafı istiqamətində görülən işlərdən və bu prosesdə YAP üzvlərinin aktiv rolundan danışıb.

Milli Məclisin deputatı Fatma Yıldırım Azərbaycanın son illərdə qazandığı tarixi nailiyyətlərdən, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpasından, qazanılan şanlı Zəfərdən sonra ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasından ətraflı bəhs edib. Vurğulayıb ki, əldə olunan uğurlar Ulu Öndər Heydər Əliyevin parlaq ideyaları və müəyyənləşdirdiyi uzaqgörən strategiyanın Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə xüsusi dinamizmlə həyata keçirilməsinin nəticəsidir.

Sonra Bərdə rayon Ağsaqqallar Şurasının sədri, partiya veteranı Yaşar Zamanov, partiya fəalı, Qaradəmirçi kənd ərazi partiya təşkilatının sədri Sənan Zamanov, "ASAN Xidmət H.Əliyev prospekti 89" ərazi partiya təşkilatının sədri İlahə Quliyeva çıxış ediblər.

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının baş məsləhətçisi Rəşad Abbaszadə partiyanın VII qurultayından ötən müddət ərzində görülən işlərdən, beynəlxalq əlaqələrinin inkişafından, yerli təşkilatların strukturlarının yenidən formalaşmasından, fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsindən söz açıb.

Konfransda YAP Bərdə rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Ümumxalq partiyasının müasir dövlətçilik tariximizdə özünəməxsus imzası var





Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Şamaxı rayon təşkilatının X konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hesabat məruzəsi ilə çıxış edən YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir müstəqil Azərbaycanın zəngin siyasi tarixinin ən mühüm səhifələrindən biri olduğunu söyləyib. Diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyası ölkəmizin hərtərəfli inkişafına mühüm töhfələr verir. O, həmçinin qeyd edib ki, rayon təşkilatı fəaliyyətini partiyanın VII qurultayında qəbul edilmiş qərarlara, eləcə də partiyanın Sədri İlham Əliyevin qurultaydakı proqram xarakterli çıxışından irəli gələn tapşırıq və tövsiyələrə uyğun olaraq qurmuş, partiyanın Nizamnamə və Proqram tələbləri çərçivəsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır. Ötən dövr ərzində rayon təşkilatı siyasi-ideoloji fəaliyyət istiqamətində işini daha da genişləndirərək təkmilləşdirmişdir.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov vurğulayıb ki, müasir, müstəqil Azərbaycanın inkişafı, tərəqqisi, tarixi uğurlar qazanaraq güclü və qüdrətli dövlətə çevrilməsi Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Natiq vurğulayıb ki, Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirlərində qazanılmış tarixi zəfərlər sayəsində Azərbaycan yeni tarixi mərhələyə qədəm qoyub. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının təmin edilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkənin beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsi qarşıda duran mühüm hədəflərdəndir.

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva deyib ki, YAP-ın siyasi dinamizmini təmin edən mühüm amillərdən biri uğurlu gənclər siyasətinin həyata keçirilməsidir. Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib. Deputat qeyd edib ki, YAP Azərbaycanın davamlı, dayanıqlı və dinamik inkişafına ardıcıl töhfələr verməyi başlıca strateji vəzifə və fəaliyyət istiqaməti kimi müəyyənləşdirib. Həmçinin YAP-ın beynəlxalq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın coğrafiyasının genişlənməsi siyasi önəm daşımaqla yanaşı, ölkəmizin xarici əlaqələrinin daha da möhkəmlənməsinə əhəmiyyətli töhfədir.

Sonra Şamaxı Rayon Ağsaqqallar Şurasının sədri Mayıl Alıcanov, ADPU Şamaxı filialının direktoru, partiya fəalı Tünzalə Yusifova, 26 saylı ərazi partiya təşkilatının sədri, Vətən müharibəsi iştirakçısı Məhəmməd Məmmədov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xəqani Tağıyev rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə işin səmərəli təşkili və partiya üzvlərinin ictimai fəallığının artırılması istiqamətində görülən işlərdən danışıb, əldə olunan nəticələrin əhəmiyyətini qeyd edib.

Konfransda YAP Şamaxı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Azərbaycançılıq milli həmrəyliyin möhkəm təməlidir





Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Lənkəran rayon təşkilatının XII konfransı keçirilib.




Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev hesabat məruzəsində rayon təşkilatının fəaliyyəti və qazandığı uğurlar barədə ətraflı məlumat verib. O qeyd edib ki, partiyanın VII qurultayı müasir çağırışlara uyğun fəaliyyətin gücləndirilməsi baxımından mühüm mərhələ olub. Natiq vurğulayıb ki, Azərbaycanın özünü güclü və qüdrətli dövlət kimi təsdiq etməsində, regional güc mərkəzinə - bölgənin lider dövlətinə çevrilməsində, eləcə də Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərlə tarix yazaraq adını əbədi olaraq tarixə həkk etməsində Yeni Azərbaycan Partiyasının müstəsna rolu və dəyərli töhfəsi olmuşdur.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov qeyd edib ki, Yeni Azərbaycan Partiyası ötən illər ərzində dövlətçilik düşüncəsinin, milli həmrəyliyin və xalqın gələcəyə olan inamının başlıca daşıyıcılarından birinə çevrilərək özünü nüfuzlu siyasi qüvvə kimi təsdiqləmişdir. O bildirib ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Natiq həmçinin Lənkəran şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərindən, sosial-iqtisadi layihələrdən və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən danışaraq, bu sahədə YAP üzvlərinin fəal iştirakını xüsusi vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxışında Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi şərəfli inkişaf yolundan və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsindəki əvəzsiz rolundan bəhs edərək, Ulu Öndər Heydər Əliyevin parlaq ideyalarının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib. Natiq qalib Azərbaycanın yaratdığı yeni reallıqlardan, regionda yeni sülh və təhlükəsizlik arxitekturasının formalaşması istiqamətində atılan mühüm addımlardan geniş danışaraq, ölkəmizin orta güc statusuna yüksəlməsinin əhəmiyyətini diqqətə çatdırıb. Qeyd edib ki, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan Azərbaycan qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrini uğurla inkişaf etdirməkdədir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Cavanşir Paşazadə Yeni Azərbaycan Partiyasının Azərbaycan dövlətçiliyinin inkişafında xidmətlərinin danılmaz olduğunu və partiyanın bu istiqamətdə gördüyü işlərin cəmiyyət tərəfindən yüksək qiymətləndirildiyi diqqətə çatdırıb. O həmçinin Vətən müharibəsində qazanılan şanlı Zəfər və bir gündən az davam edən antiterror əməliyyatı ilə ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpa olunmasının, azad olunan ərazilərimizdə aparılan böyük bərpa və quruculuğu xalqımızın milli iradəsinin və dövlətimizin gücünün göstəricisi olduğunu söyləyib.

Sonra Lənkəran Dövlət Universitetinin sosial məsələlər üzrə prorektoru, ərazi partiya təşkilat sədri Ramiz Şəmmədova, Lənkəran Dövlət Universiteti nəzdində Sosial Aqrar-Texnoloji Kollecin direktoru, ərazi partiya təşkilat sədri Leyla İbrahimova, Lənkəran-Astara Regional Təhsil İdarəsinin Lənkəran Rayon Təhsil Sektorunun müdiri, ərazi partiya təşkilatının sədri Ağaməd Şənmədova çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının VII qurultayından ötən dövr ərzində görülən işlərdən danışaraq partiyanın Proqram və Nizamnamə tələblərinə uyğun olaraq yerli təşkilatların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində sistemli işlərin həyata keçirildiyini vurğulayıb.

Konfransda YAP Lənkəran rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Mükəmməl investisiya strategiyası

## Dövlət Neft Fondu suveren kapital bazarında mövqeyini möhkəmləndirir

Azərbaycanın Dövlət Neft Fondu (DNF) beynəlxalq suveren fondlarla əməkdaşlığı artıraraq, öz kapital imkanlarını gücləndirməkdədir. Hazırda aktivlərini 75 milyard dollara çatdıran Neft Fondunun qlobal portfeli borc öhdəlikləri və pul bazarı alətləri, səhmlər, qızıl, daşınmaz əmlak və infrastruktur daxil olmaqla, müxtəlif aktiv sinifləri üzrə şaxələndirilib. Son illərdə Çin və Cənub-Şərqi Asiya istiqaməti investisiya coğrafiyasının genişləndirilməsi Fondun investisiya siyasətində prioritet istiqamətlərdən birinə çevrilməkdədir.

DNF Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumunun birgə təsis etdiyi Çin-ASEAN İnvestisiya Platformasında (CAIP) yer almaqla suveren fondlar ailəsində öz yerini daha da möhkəmləndirib. Eyni zamanda, bu platformaya qoşulmaqla, beynəlxalq miqyasda strateji tərəfdaşlığı gücləndirilməklə, beynəlxalq investisiya sektorunda yeni mərhələyə keçidi daha da sürətləndirib.

DNF-nin Çin İnvestisiya Korporasiyası (CIC), Tayland Hökumətinin Pensiya Fondu, Malayziyanın suveren sərvət fondu "Khazanah Nasional Berhad", Malayziyanın pensiya fondu "Kumpulan Wang Persaraan" (Diperbadankan) və İndoneziya İnvestisiya Qurumu (INA) ilə birlikdə Çin-ASEAN Birgə İnvestisiya Şurasını (CAJIC) təsis etməsi qlobal sərmayə bazarında yeni hadisə kimi dəyərləndirilə bilər.

### "A2" reytinqi yüksək nüfuzu əks etdirir

Dövlət Neft Fondu hazırda dünyanın ən nəhəng suveren fondları, kapital institutları ilə sıx əməkdaşlıq edir. Dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan ABŞ-ın "Brookfield Asset Management" və "Brookfield" şirkətləri ilə yaxın əməkdaşlıq münasibətləri investisiya nüfuzunun göstəricisidir. Habelə Amerikanın "Neuberger Berman" şirkəti ilə 2016-cı ildən etibarən səmərəli tərəfdaşlıq quran Dövlət Neft Fondunun müasir investisiya alətləri tətbiq etməsində "Neuberger Berman"in təcrübəsi mühüm əhəmiyyət kəsb edir. Bütün bu amillər Fondun investisiya reytinqinin yüksəlməsinə də təsir edir. Beynəlxalq kredit agentlikləri "Standard & Poor's" tərəfindən verilmiş "A" və "Fitch" - "Moody's" tərəfindən verilmiş "A2" kredit reytinqi də bunu təsdiqləyir.

Göründüyü kimi Fond təkcə maliyyə nəticələrini yaxşılaşdırmaqla kifayətlənmir, eyni zamanda, Azərbaycanın qlobal iqtisadi müstəvidə mövqeyini möhkəmləndirən layihələrə investisiya qoymaqla, davamlı inkişafa və gələcək nəsillərin mənafeyinə xidmət edən əsas maliyyə dayaqlarından biri kimi çıxış edir.

### DNF-Çin-ASEAN investisiya platforması

DNF, Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumu tərəfindən birgə təsis olunan platforma Çin və ASEAN regionu arasında uzunmüddətli investisiya imkanlarının reallaşdırılmasına xidmət edir. İlkin mərhələdə platforma çərçivəsində 520 milyon dollar həcmində vəsait formalaşdırılıb və gələcəkdə bu məbləğin 1 milyard dollara çatdırılması nəzərdə tutulur. Platformanın fəaliyyəti üç suveren fondun birgə idarəetmə mexanizminə əsaslanır və əsas məqsəd kapital axınlarının təşviqi ilə yanaşı, sənaye əməkdaşlığının daha da gücləndirilməsidir. Bu çərçivədə sənaye, səhiyyə, istehlak, texnologiya və biznes xidmətləri kimi sahələr üzrə yüksək potensiala malik investisiya imkanlarının dəyərləndirilməsi planlaşdırılır. Qlobal təchizat zəncirlərində baş verən dəyişikliklər də bu istiqamətdə yeni fürsətlərin yaranmasına zəmin yaradır.

Bu təşəbbüsün formalaşması isə əvvəlki illərdə atılmış addımların məntiqi davamıdır. Belə ki, 2025-ci ilin aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı DNF ilə Çin İnvestisiya Korporasiyası arasında imzalanmış anlaşma sənədi iki ölkənin suveren fondları arasında əməkdaşlığın inkişafına mühüm təkan verib. Həmin sənəd yalnız tərəfdaşlığın genişlənməsi üçün zəmin yaratmayıb, eyni zamanda, bilik və təcrübə mübadiləsini, eləcə də dayanıqlı investisiya yanaşmalarının formalaşdırılmasını təşviq edən strateji çərçivə rolunu oynayır. Beləliklə, Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumu ilə birlikdə CAIP platformasına qoşulan DNF üçtərəfli əməkdaşlıq çərçivəsində yeni idarəçilik modeli formalaşdırmış olur.




### CAIP platformasının üstünlükləri

Platforma yalnız maliyyə resurslarının cəlb edilməsi ilə məhdudlaşmır, həmçinin tərəfdaş fondlar arasında institusional təcrübə mübadiləsi, bilik paylaşımı və əlaqələrin genişləndirilməsi baxımından da mühüm rol oynayır. Bu yanaşma uzunmüddətli perspektivdə daha dayanıqlı və səmərəli investisiya mühitinin formalaşdırılmasına xidmət edir.

CAIP çərçivəsində ayrılan vəsaitlərin əsasən beynəlxalq nüfuza malik özəl kapital idarəçilərinin fondlarına yönəldilməsi planlaşdırılır. Bununla yanaşı, ASEAN regionunda fəaliyyətini genişləndirmək istəyən Çin şirkətləri, eləcə də Çin texnologiyası və təchizat imkanlarından yararlanmağa çalışan yerli şirkətlər üçün də əlavə imkanlar yaradılır.

DNF üçün bu platformada iştirak həm də investisiya strategiyasının mühüm tərkib hissəsidir. Fondun uzunmüddətli və şaxələndirilmiş portfel siyasətinə uyğun olaraq, Cənub-Şərqi Asiya bazarlarına çıxış imkanları genişlənir və yeni investisiya istiqamətləri formalaşır. Neft Fondu uzun müddətdir Çin bazarında aktiv fəaliyyət göstərir. Fond 2015-ci ildən etibarən bu ölkənin kapital bazarlarına investisiyalar yatırır və hazırda həmin yatırımlar ümumi portfelin təxminən 2,5 faizini təşkil edir ki, bu da təxminən 1,9 milyard dollara bərabərdir. İnvestisiyaların böyük hissəsi sabit gəlirli alətlərə yönəlsə də, bu investisiyalar arasında səhmlər, infrastruktur layihələri və daşınmaz əmlak kimi müxtəlif maliyyə aktivləri də yer alır. Hazırda Dövlət Neft Fondunun investisiya portfelinin 2,2 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə edir ki, bu da suveren fondlar arasında münasibətlərin möhkəm etimada əsaslanmasının göstəricisidir.

### Qlobal investisiya bazarlarında etibarlı tərəfdaş

Ümumiyyətlə, aktivləri 75 milyard dollara çatan Azərbaycanın milli suveren institutu - DNF qlobal maliyyə bazarlarında fəal tərəfdaş kimi qəbul edilməkdədir. Dövlət Neft Fondu hazırda dünyanın ən nəhəng suveren fondları, kapital institutları ilə sıx əməkdaşlıq edir. Dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan ABŞ-ın "Brookfield Asset Management" və "Brookfield" şirkətləri ilə yaxın əməkdaşlıq münasibətləri investisiya nüfuzunun göstəricisidir. Habelə Amerikanın "Neuberger Berman" şirkəti ilə səmərəli tərəfdaşlıq quran Dövlət Neft Fondunun müasir investisiya alətləri tətbiq etməsində "Neuberger Berman"in təcrübəsi mühüm əhəmiyyət kəsb edir.

DNF Avrozona, ABŞ, Asiya və digər qlobal bazarlarda öz investisiya siyasətini şaxələndirirək Azərbaycanın milli gəlirlərinin artmasında mühüm rol oynayır. Dünyada baş verən mürəkkəb geoiqtisadi proseslər fonunda təmkinli sərmayə siyasəti yürüdərək məcmu aktivlərini artırmaqdadır. Hazırda Fondun kapital porfelinin əhəmiyyətli hissəsi qlobal bazarlarda müxtəlif maliyyə alətlərinə, o cümlədən, səhm, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələrə yönəldilib.

### Orta Dəhlizin inkişafına maliyyə töhfəsi

Bu strateji imkan, həmçinin Orta Dəhlizin investisiya komponentinin gücləndirilməsi üçün mühüm fürsət yaradır. Azərbaycan Çinlə Avropa arasında yükdaşıma marşrutunun mühüm hissəsidirsə, gələcəkdə həmin marşrut üzrə formalaşan iqtisadi fəallığın maliyyələşdirilməsi və investisiya imkanlarının qiymətləndirilməsində daha fəal mövqe tuta bilər.

Çin və ASEAN ilə artan ticarət əlaqələri, Orta Dəhlizin inkişafı və suveren investorlar arasında yaranan yeni şəbəkələr eyni iqtisadi xəttin müxtəlif elementlərinə çevrilə bilər. Orta Dəhliz Azərbaycanın Asiya ilə Avropa arasında fiziki bağlantısını gücləndirməklə, CAJIC və digər platformalarda bağlantının maliyyə və institusional inkişafına da töhfə verəcək. Bu isə Azərbaycanın qarşısında yalnız Şərqlə Qərb arasında yükdaşıma marşrutunun deyil, kapitalın, investisiyanın, texnologiyanın və institusional əməkdaşlığın hərəkət etdiyi daha geniş iqtisadi dəhlizin formalaşdırılması perspektivini yaradacaq. DNF-nin Çin və Cənub-Şərqi Asiya maliyyə bazarlarında imkanlarının və institusional çəkisinin möhkəmlənməsinə səbəb olacaq.

Beləliklə, Azərbaycanın milli suveren qurumu olan Dövlət Neft Fondu öz investisiya strategiyasını daha da təkmilləşdirərək neft və qaz gəlirlərindən əldə edilən vəsaitləri mükəmməl idarəetmə kursu sayəsində artırır və Azərbaycanın milli dividend potensialını gücləndirir. Bu siyasət, həmçinin DNF-nin beynəlxalq maliyyə arxitekturasında strateji mövqeyinin daha da möhkəmlənməsinə, eləcə də qlobal iqtisadi proseslərdə daha fəal iştirakının təmin olunmasına xidmət edir.

***E.CƏFƏRLİ***

# ABŞ - İran münaqişəsində yeni mərhələ...

Yaxın Şərqdə vəziyyət gərgin olaraq qalır. ABŞ və İran ordusu bir-birinə qarşı hücumları davam etdirir. Ötən həftə Prezident Donald Tramp ABŞ ilə İran arasındakı münaqişənin noyabr ayında keçiriləcək aralıq seçkilərdən dərhal sonra başa çatacağını bildirib. O, həmçinin seçkilərdən əvvəl razılaşmanın əldə olunmasının mümkünlüyünü də istisna etməyib.

## İkinci mərhələnin məqsədi...

Vitse-prezident Cey. Di. Vens isə ABŞ ilə İran arasında münaqişənin yaxın aylarda tamamilə yeni mərhələyə keçəcəyini bildirib. O, "The New York Post" qəzetinə müsahibəsində "Gələcəyi proqnozlaşdıra bilmərik, lakin hesab edirəm ki, prezident vəziyyətin bir neçə aydan sonra tamamilə fərqli mərhələyə keçəcəyini deyərkən haqlıdır" deyə qeyd edib. Onun sözlərinə görə, münaqişənin inkişafını iki mərhələyə bölmək olar və birinci mərhələ başa çatıb. Belə ki, birinci mərhələ İranın nüvə proqramının və adi silahlı qüvvələrinin məhv edilməsini, həmçinin ölkənin bir neçə il əvvəl malik olduğu güc proyeksiyası imkanlarının aradan qaldırılmasını əhatə edib.

Vens deyib ki, ikinci mərhələnin əsas məqsədi "qlobal sabitliyi mümkün qədər qorumaq" və İranın yenidən güclənməsinə imkan verməməkdən ibarətdir. Vitse-prezident vurğulayıb ki, ABŞ-ın Ali Baş Komandanı kimi yalnız Prezident Donald Tramp münaqişələrin nə vaxt başlayıb, nə vaxt başa çatacağını müəyyənləşdirir. Vens həmçinin bildirib ki, hazırda ABŞ "aqressiv əməliyyatlarda iştirak etmir".

ABŞ-ın maliyyə naziri Skott Bessent isə Nümayəndələr Palatasının Maliyyə Xidmətləri Komitəsində keçirilən dinləmədə deyib ki, ölkə iqtisadiyyatının gücü Vaşinqtona İran İslam Respublikasına və onu dəstəkləyənlərə qarşı genişmiqyaslı iqtisadi təcrid kampaniyası aparmağa imkan verir: "Prezident Tramp özündən əvvəlki administrasiyaların uzun müddət təxirə saldığı addımları atıb. Onun rəhbərliyi altında Amerika artıq İran təhlükəsini idarə etməklə kifayətlənmir, bu təhlükəyə son qoyur". Onun sözlərinə görə, ABŞ iqtisadiyyatının yenidən güclənməsi ölkənin rəqiblərinə qarşı güc mövqeyindən fəaliyyət imkanlarını artırır.



## Nümayəndələr Palatası hərbi əməliyyatların dayandırılmasını tələb edib

Nəzərə alaq ki, ABŞ-ın İranla 6 aydan çoxdur davam edən müharibəyə çəkdiyi hərbi xərclər azı 42 milyard dollara çatıb. Pentaqonun avqust ayında Konqresin müdafiə komitələrinə təqdim etdiyi məlumata görə, yeni göstərici əvvəlki hesablamadan 4,5 milyard dollar çoxdur. Qeyd edək ki, Ağ Ev iyun ayında Konqresdən 87,6 milyard dollarlıq əlavə maliyyələşdirmə istəyib. Bunun 67,1 milyard dollarının əsasən Yaxın Şərqdəki hərbi əməliyyatların təmin edilməsinə yönəldilməsi nəzərdə tutulur. Pentaqonun iyunun 29-na olan hesabatında əməliyyatların dəyəri 33,4 milyard dollar göstərilmişdi.

Lakin bütün bunların fonunda ABŞ Konqresinin Nümayəndələr Palatası Prezident Donald Trampdan İrana qarşı hərbi əməliyyatları dayandırmağı tələb edən qətnamə qəbul edib. Qanunverici orqanın aşağı palatasında keçirilən səsvermə C-SPAN telekanalı tərəfindən yayımlanıb. Respublikaçıların nəzarətində olan Nümayəndələr Palatasının 220 üzvü qətnamənin lehinə səs verib. 204 qanunverici isə əleyhinə çıxıb. Beləliklə, qətnamə qəbul edilib.

Qətnamənin hüquqi qüvvəsi yoxdur və tövsiyə xarakteri daşıyır. Belə sənədlərlə qanunvericilər öz mövqelərini ifadə edirlər. Lakin ABŞ-ın icra hakimiyyəti belə qətnamələri nəzərə almamaq hüququna malikdir. ABŞ Konstitusiyası müharibə elan etmək səlahiyyətini Prezidentə deyil, Konqresə verir. Bununla belə, son onilliklərdə ABŞ prezidentləri qanunvericilər tərəfindən xaricdə hərbi gücdən istifadəyə verilən icazələri geniş şəkildə şərh edib və bu icazələrdən faktiki olaraq yeni hərbi əməliyyatlara başlamaq üçün də istifadə ediblər.

Əslində, ABŞ-da bu müharibənin əleyhinə olanların sayının artması anlaşılandır. Çünki mövcud münaqişə qlobal iqtisadiyyata çox ciddi təsir etməkdədir. Xüsusilə, son günlər dünya bazarında neftin qiyməti əhəmiyyətli dərəcədə yüksəlib. Belə ki, neftin bir bareli 100 dollardan baha satılır. Hörmüz boğazının blokadada qalması və regiondakı digər keçidlərin təhlükəli olması səbəbindən risklər qalmaqdadır. Digər tərəfdən, ABŞ Ordusunun Mərkəzi Komandanlığı İrana qarşı tətbiq olunan dəniz blokadası çərçivəsində sentyabrın 15-dək 103 kommersiya gəmisinin istiqamətinin dəyişdirildiyini də açıqlayıb.

## Almaniyada gizli görüş...

Belə bir şəraitdə, ABŞ, İsrail və bir sıra ərəb ölkələrinin yüksəkrütbəli hərbi rəhbərləri İranla müharibəni və regiondakı gərginliyi müzakirə etmək üçün ötən həftə Almaniyada görüşüblər. Bu barədə "Axios" İsrailin iki rəsmisinə istinadla məlumat yayıb. ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri, admiral Bred Kuperin təşkil etdiyi qapalı görüşdə İsrail, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Küveyt, Qətər, İordaniya və Misirin baş qərargah rəisləri iştirak ediblər. Məlumata görə, admiral Bred Kuper İranın ABŞ bazalarına hücumlarına baxmayaraq, Amerika qüvvələrinin regiondan çıxarılmayacağını bildirib. O, həmçinin Hörmüz boğazında gəmi hərəkətinin genişləndirilməsi ilə bağlı ABŞ-ın planı barədə iştirakçılara məlumat verib.

CENTCOM görüşün keçirildiyini təsdiqləyərək Almaniyada planlaşdırılmış konfrans çərçivəsində səkkiz ölkənin yüksəksəviyyəli hərbi rəhbərlərinin bir araya gəldiyini və Yaxın Şərqdə təhlükəsizlik əməkdaşlığının gücləndirilməsi imkanlarını müzakirə etdiklərini açıqlayıb.

*N.BAYRAMLI*

# Dəyənəyin iki başı...

## Sanksiyalardan həm Rusiya, həm də Qərb dünyası ciddi şəkildə təsirlənir

Son 5 ildə Rusiya-Ukrayna müharibəsi yalnız sahədə, döyüş meydanlarında getməyib. Deyə bilərik ki, kollektiv Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar bu müharibənin ən mühüm istiqamətlərindən birinə çevrilib. Fərqli paketlərdə tətbiq edilən sanksiyaların əhatə dairəsi kifayət qədər genişdir və sayı da getdikcə artır.

Qadağaların tətbiqində əsas məqsəd Rusiyanın bir sıra strateji məhsulların, xüsusilə də neft, qaz və kömürün ixracından əldə etdiyi gəlirləri azaltmaqla, bu ölkənin müharibəni davam etdirmək imkanlarını məhdudlaşdırmaqdır. Əlbəttə, sanksiyalar Rusiyaya güclü təsir göstərir və onu iqtisadi baxımdan zəif salır. Lakin dəyənəyin iki başı var, deyiblər. Yəni sanksiyalar Rusiyanın maliyyə resurslarını azaltmaqla yanaşı, Qərb dünyası da bundan böyük dərəcədə təsirlənir. Hazırda Avropa İttifaqı (Aİ) ölkələrində izlənilən bir sıra mənfi proseslər - enerji təhlükəsizliyinin təhdid altına düşməsi, qiymətlərin artması, inflyasiyanın sürətlənməsi və bütün bunların nəticəsi olaraq insanların sosial vəziyyətinin ağırlaşması bunun əyani təsdiqidir. Mütəxəssislərin qənaətinə görə, müharibə yaxın vaxtlarda başa çatsa belə, həm Rusiyada, həm də Qərb dünyasında sanksiyaların təsirləri uzunmüddətli olacaq və onların fəsadlarını aradan qaldırmaq üçün uzun illər lazım gələcək.

## Sanksiyalar "cəbhəsində" son durum - Rusiyanın 1 trilyon dollar zərəri

Qeyd etdiyimiz kimi, Rusiyaya qarşı sanksiyaların tətbiqi davamlı prosesə çevrilib. İndiyədək Aİ Rusiyaya qarşı 21 sanksiya paketi qəbul edib. Məhdudiyyətlər ticarət, maliyyə, enerji, sənaye, texnologiya, nəqliyyat, ikili təyinatlı və dəbdəbəli mallar, həmçinin qızıl və brilyantlar da daxil olmaqla geniş sahələri əhatə edir.

Sanksiyalar çərçivəsində Rusiya xam neftinin və müəyyən neft məhsullarının dəniz yolu ilə Aİ ölkələrinə daşınmasına qadağa, Rusiya bankları ilə bağlı əməliyyat məhdudiyyətləri və bir sıra Rusiya media qurumlarının yayım fəaliyyətinə qadağa tətbiq edilib. Aİ-nin məlumatlarına görə, tətbiq edilən sanksiyalar hazırda təxminən 3 min fiziki və hüquqi şəxsi əhatə edir.

Bütövlükdə, Rusiyanın zərərinin 1 trilyon dolları ötdüyü bildirilir. Sanksiyalar Rusiya iqtisadiyyatını dərhal çökdürməsə də, ölkəni yüksək inflyasiya, maliyyə imkanlarının məhdudlaşması və texnoloji geriləmə ilə xarakterizə olunan "hərbi relslər üzərində iqtisadiyyata" (guns over butter) keçməyə məcbur edib. Özünü göstərən əsas əlamətlərdən biri büdcə kəsirinin əhəmiyyətli dərəcədə artmasıdır. Eləcə də Rusiyanın iqtisadi şoklara qarşı ən böyük "təhlükəsizlik yastığı" olan Milli Rifah Fondunun likvid aktivləri azalaraq müharibədən əvvəlki ÜDM-in 6,5 faizi səviyyəsindən 1,8 faiz səviyyəsinə qədər geriləyib. Mərkəzi Bank yaranan vəziyyəti nəzərə almaqla sərt pul siyasəti aparmaq və uçot dərəcəsini yüksək səviyyədə saxlamaq məcburiyyətində qalıb. Sanksiyalardan kritik dərəcədə təsirlənən sahə isə enerji sektorudur. Ölkənin gəlirlərinin azalmasının əsas səbəbi neft və qazın ixracının məhdudlaşması ilə bağlıdır. Sanksiyalar çərçivəsində qiymət tavanının (hər barel üçün 60 dollar məhdudiyyəti) müəyyənləşdirilməsi səbəbindən Rusiya həm də özünün strateji əhəmiyyətli enerji məhsullarını endirimlə satmaq məcburiyyətindədir. Aparıcı araşdırma mərkəzlərinin (məsələn, CREA) hesablamalarına görə, Rusiya neft və qaz ixracına qoyulan məhdudiyyətlər səbəbindən gündə təxminən 160-170 milyon avro potensial gəlir itirir.

Bununla belə, ixracın məhdudlaşdırılması Rusiyanın neft-qaz gəlirlərindən tamam məhrum qalması anlamına gəlmir. Müxtəlif mənbələrin məlumatına əsasən, bu ölkə qalıq yanacaq ixracından gündə təxminən 600-700 milyon avro civarında birbaşa gəlir qazanır.

Sanksiyaların isə ardı-arası kəsilmir. Avropa İttifaqının son - sayca 21-ci sanksiya paketi cari ilin iyul ayında təsdiqlənib. Bu paketdə əsas yeniliklərdən biri kriptovalyuta əməliyyatlarına münasibətdə ekstraterritorial yanaşmanın tətbiq olunmasıdır. Yeni qaydalara əsasən, Aİ artıq təkcə ayrı-ayrı kriptobirjalara deyil, sanksiyalardan yayınmağa şərait yaradan platformaların fəaliyyət göstərdiyi ölkələrə qarşı da tam ölkə səviyyəsində məhdudiyyətlər (full third-country ban) tətbiq edə biləcək.

Bundan əlavə, Aİ ölkələri Rusiyanın "kölgə donanması" ilə əlaqəli gəmilərin yanacaqla təmin edilməsi (bunkerləmə) və ekipajların işə götürülməsi ilə məşğul olan şirkətlərə qarşı da sanksiyalar tətbiq etmək səlahiyyəti əldə ediblər.

Yeni paket çərçivəsində, əgər üçüncü ölkədə yerləşən neft emalı zavodunun Rusiya neftini alıb emal etdiyi sübuta yetirilərsə, həmin müəssisə də sanksiyalar siyahısına daxil edilə bilər. Məlumata görə, məhdudiyyətlər artıq Belarusdakı bir iri neft emalı zavoduna, eləcə də Rusiyada fəaliyyət göstərən üç neft emalı zavoduna şamil olunub.

Hələ bu da son deyil. Avropa Komissiyası Rusiyaya qarşı daha geniş əhatə dairəsinə malik yeni sanksiyaların anonsunu edib. Bu barədə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Almaniyanın "Die Welt" qəzetinə müsahibəsində bildirib. "Payızda müharibə başlayandan bəri Rusiyaya qarşı ən əhatəli sanksiyalar siyahısı təqdim ediləcək", - deyə Kallas vurğulayıb.

O qeyd edib ki, yeni məhdudlaşdırıcı tədbirlərin qəbul edilməsi sanksiyalara məruz qalan Rusiya vətəndaşlarının, hüquqi şəxslərin və qurumların sayını artıracaq.

Eyni zamanda, ABŞ Konqresi Nümayəndələr Palatasının Prosedur Komitəsi bu günlərdə Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsi ilə bağlı qanun layihəsini dəstəkləyib və onu baxılması üçün aşağı palataya göndərib. Məlumata görə, ABŞ Senatı qanun layihəsini ötən ay böyük səs çoxluğu ilə təsdiqləyib.

Qanun layihəsi ABŞ Prezidenti Donald Trampa Rusiyadan xam neft və təbii qaz alan bəş ən böyük ölkəyə, həmçinin Rusiyaya enerji sanksiyalarından yayınmağa ən çox kömək edən beş ölkəyə qarşı 100 faizlik tariflər tətbiq etmək səlahiyyəti verəcək. Bildirilir ki, layihə həm respublikaçıların, həm demokratların, eləcə də Ağ Evin dəstəyinə malikdir.




## Avropanın enerji bazarında risklər artır

Müharibədən ən çox təsirlənən ölkə, əlbəttə ki, Ukraynadır. Təkcə 2026-cı ildə Ukrayna iqtisadiyyatına dəyən ziyan 10 milyard dollar təşkil edəcək. Raket hücumları nəticəsində mülki infrastruktur və sənaye müəssisələri böyük ziyana məruz qalıb. Ukraynanın iqtisadiyyat və ətraf mühit naziri Aleksandr Kravçenko deyib ki, hazırda ölkədə biznes çox çətin vəziyyətdədir. Ölkədə enerji təchizatı kritik dərəcədə çətinləşib və bu, qış aylarında özünü daha qabarıq şəkildə göstərəcək. İş o yerə çatıb ki, Ukraynanın büdcəsi belə xarici yardımlar hesabına idarə olunur, həmçinin milyonlarla insan ölkəni tərk edib.

Müharibədən əvvəl Avropa ölkələrinin nisbətən ucuz enerji məhsulları ilə təchizatında Rusiya böyük paya malik idi. Hazırda isə Avropanın enerji bazarında risklər artıb ki, bu da digər təsirlərlə yanaşı, həm də Rusiyaya qarşı sanksiyalardan qaynaqlanır. Avropada təbii qaz ehtiyatlarının son illərin ən aşağı səviyyələrindən birinə enməsi və neft məhsullarının sürətlə bahalaşması qarşıdakı qış mövsümündə enerji bazarlarında yeni qiymət təzyiqi yarada bilər. Rumıniyanın "Profit.ro" nəşrinin "Bloomberg"in təhlilinə istinadla yaydığı məlumata görə, Avropada təbii qazın qiyməti 2022-ci ilin sonundan bəri ən yüksək səviyyəyə çatıb. Qaz anbarlarının doluluq səviyyəsi isə cəmi 67 faiz olmaqla payızın ilk ayı üçün xüsusilə aşağıdır.

Eyni zamanda, neft məhsulları bazarında xam neftlə müqayisədə daha kəskin bahalaşma müşahidə olunur. "Brent" markalı neft yenidən 1 barel üçün 100 dollar həddini keçdiyi halda, dizelin topdansatış qiyməti 1 barel üçün təxminən 200 dollara çatıb. Vergilər nəzərə alındıqda istehlakçı üçün yekun xərc daha yüksək olur.

Qlobal dizel təklifindəki məhdudiyyətlərin əsas səbəbləri sırasında emal güclərinin yetərsizliyi, Rusiya neft məhsullarının ixracına qoyulan məhdudiyyətlər və qış mövsümü yaxınlaşdıqca tələbin artması göstərilir. Yaxın Şərqdə davam edən geosiyasi gərginlik də enerji daşımaları və emal sektoruna əlavə təzyiq yaradır.

## Ayrı-ayrı ölkələrdə izlənilən kritik vəziyyət

Bahalaşmanın Rumıniya bazarına təsiri də artıq hiss olunur. "Profit.ro"nun məlumatına görə, ölkənin aparıcı yanacaqdoldurma şəbəkələri sentyabrın 11-də qiymətləri yenidən artırıb. OMV stansiyalarında dizelin 1 litri 10,43, benzinin 1 litri isə 9,97 leyə çatıb.

Rumıniyada yanacaq aksizinin müvəqqəti azaldılması qiymət artımını müəyyən qədər məhdudlaşdırır. "Profit.ro" hesablayır ki, hazırkı güzəşt tətbiq edilməsəydi, bir sıra şəbəkələrdə dizelin qiyməti 11 ley həddini keçə bilərdi.

Yunanıstanda vəziyyət xüsusilə qış mövsümü ərəfəsində diqqətlə izlənilir. Hazırkı bazar şərtlərinin davam edəcəyi təqdirdə istilik mazutunun yeni mövsümdə bir litr üçün təxminən 1,80 avroya qədər bahalaşa biləcəyi bildirilir. Ötən mövsümün başlanğıcında qiymət təxminən 1,13 avro idi.

Beləliklə, istilik yanacağının qiymətində təxminən 60 faizə çatan artım riski ev təsərrüfatlarının xərclərinə ciddi təsir göstərə bilər. Yunanıstan hökumətinin müxtəlif əlavə dəstək tədbirlərini nəzərdən keçirdiyi bildirilir.

*Mübariz ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Milli dəyərlər və müasir gənclik...



## Gənclərə Vətən sevgisini necə aşılayaq?

Vətən sevgisi insanın gündəlik davranışında, öz dilinə münasibətində, tarixini bilməsində, xalqının dəyərlərinə hörmətində, cəmiyyət qarşısında məsuliyyət hissində özünü göstərir. Bu baxımdan, gənc nəslin milli mənlik şüurunun formalaşdırılması cəmiyyət qarşısında dayanan mühüm məsələlərdən biridir. Çünki sabah ölkənin taleyinə qərar verəcək, onu idarə edəcək, elmini, mədəniyyətini və iqtisadiyyatını inkişaf etdirəcək insanlar bu gün məktəb partası arxasında, universitet auditoriyalarında, ailə və sosial mühitdə formalaşırlar.

## "Mən kiməm?" sualına cavab

Milli mənlik şüuru, ilk növbədə, insanın özünü mənsub olduğu xalqın bir parçası kimi dərk etməkdir. Tarixini, dilini, mədəniyyətini, adət-ənənələrini tanımaq və bunlara dəyər verməkdir. Məlumdur ki, insan öz keçmişini bilmədən gələcəyə inamla addımlaya bilməz. Tarix isə yalnız dərslik səhifələrində qalan hadisələrin ardıcıllığı deyil. Tarix bir xalqın yaddaşıdır. Həmin yaddaş qorunmadıqda milli kimlik də zəifləyir.

Bu səbəbdən gənclərə tariximizi yalnız rəqəmlər və hadisələr toplusu kimi deyil, xalqımızın keçdiyi yol, qazandığı uğurlar və üzləşdiyi çətinliklər kontekstində başa salmaq lazımdır. Gənclər öz keçmişini nə qədər dərindən tanıyarsa, bu gününü və gələcəyini də bir o qədər düzgün qiymətləndirə bilər.

## Şüardan daha böyük anlayış...

Vətənpərvərlik haqqında danışarkən bir məqamı xüsusilə unutmaq olmaz: vətənpərvərlik tərbiyə edilən hissdir, amma məcbur edilən davranış deyil. Gənclərə "Vətəni sevməlisən" deməklə Vətən sevgisi aşılamaq mümkün deyil. Onlara Vətənin nə olduğunu hiss etdirmək lazımdır. Bunun yolu isə nümunədən keçir.

Müəllimin öz peşəsinə məsuliyyətlə yanaşması, valideynin övladına dürüstlük və zəhmət nümunəsi göstərməsi, cəmiyyətin gəncin əməyini qiymətləndirməsi - bütün bunlar vətənpərvərlik tərbiyəsinin görünməyən, lakin ən təsirli formalarıdır. Çünki gənc nəslə deyilən sözlər yox, gördükləri davranışlar daha çox təsir edir.

## Gənclərin dünyası dəyişib

Bugünkü gənclik əvvəlki nəsillərdən fərqli olaraq informasiya ilə əhatə olunmuş bir dünyada yaşayır. Bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsində baş verən hadisədən xəbər tuta, müxtəlif mədəniyyətlərlə tanış ola, fərqli ideyalarla qarşılaşa bilir. Bu imkanlar böyük üstünlükdür. Lakin bununla yanaşı, milli kimliyin qorunması məsələsini də daha aktual edir.

Qloballaşan dünyada milli dəyərlərə bağlı olmaq dünyadan təcrid olunmaq demək deyil. Əksinə, öz kimliyini bilən insan dünyaya daha inamla açılır. Öz dilini, tarixini və mədəniyyətini tanıyan gənc başqa xalqların dəyərlərinə də hörmət etməyi daha asan öyrənir. Məsələ gəncləri dünyadan uzaqlaşdırmaq yox, dünya ilə ayaqlaşarkən kim olduğunu unutmamasını təmin etməkdir.

## Eyni istiqamətdə iki mühüm qüvvə...

Milli mənlik şüurunun formalaşmasında məktəbin rolu danılmazdır. Lakin bu məsuliyyəti yalnız müəllimin üzərinə qoymaq düzgün olmazdı. Uşağın ilk tərbiyə məktəbi ailədir. Ailədə ana dilinə münasibət, böyüklərə hörmət, milli adətlərin yaşadılması, tarixi şəxsiyyətlər haqqında söhbətlər, milli musiqiyə və ədəbiyyata marağın formalaşdırılması uşağın dünyagörüşünə birbaşa təsir edir.

Məktəb isə bu ilkin dəyərləri bilik və dünyagörüşü ilə tamamlamalıdır. Tarix, ədəbiyyat, coğrafiya, musiqi və digər fənlər milli kimliyin formalaşmasına yalnız nəzəri bilik səviyyəsində deyil, emosional və mənəvi müstəvidə də xidmət etməlidir.

Bunun üçün gəncləri muzeylərə, tarixi məkanlara, mədəniyyət ocaqlarına aparmaq, yaradıcı layihələrə cəlb etmək, onların öz fikirlərini sərbəst ifadə etməsinə imkan yaratmaq daha effektiv nəticə verə bilər. Çünki yaşadığını və hiss etdiyini insan daha yaxşı yadda saxlayır.

## Gənclərə güvənmək də vətənpərvərlikdir...

Bəzən vətənpərvərlik anlayışını yalnız keçmiş qəhrəmanlıqlarla əlaqələndiririk. Halbuki Vətənin gələcəyi haqqında düşünmək də vətənpərvərlikdir. Gənclərə "siz bizim gələcəyimizsiz" demək kifayət deyil. Onlara gələcəyin qurulmasında real rolunun olduğunu göstərmək lazımdır. Onların ideyasını dinləmək, təşəbbüsünü dəstəkləmək, elmə və yaradıcılığa marağını artırmaq, ölkəsində öz gələcəyini görməsi üçün imkanlar yaratmaq lazımdır.

## Milli dəyərlər gələcəyə aparan körpüdür

Milli mənlik şüurunun inkişafı keçmişə nostalji münasibət formalaşdırmaq deyil. Əsas məqsəd milli dəyərləri müasir həyatla uzlaşdırmaqdır. Ənənəni qorumaqla yeniliyə açıq olmaq, milli kimliyi saxlamaqla dünyaya inteqrasiya etmək, öz tarixini bilməklə gələcəyə baxmaq mümkündür.

Gənc nəsil bu tarazlığı nə qədər düzgün qura bilsə, cəmiyyət də bir o qədər sağlam inkişaf edər. Çünki güclü dövlət yalnız iqtisadi göstəricilər, texnologiyalar və infrastrukturlarla qurulmur. Güclü dövlətin arxasında öz kimliyini bilən, məsuliyyət hissi olan, təhsilə və əməyə dəyər verən, ölkəsinin gələcəyinə inanan vətəndaş dayanır.

Bu gün gənclərə verdiyimiz tərbiyə əslində sabahın Azərbaycanını formalaşdırır. Ona görə də milli mənlik şüurunun və vətənpərvərlik hissinin inkişafı yalnız təhsil müəssisələrinin deyil, ailənin, medianın, mədəniyyətin və bütövlükdə cəmiyyətin ortaq məsuliyyətidir".

*Yeganə BAYRAMOVA*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**


# Pasiyent təhlükəsizliyi - risklərin azaldılması, keyfiyyətli müalicə...

Hər il tibbi yardım göstərilməsi zamanı təhlükəsizlik qaydalarına əməl olunmadığına görə, dünyada milyonlarla pasiyent zərər görür. Aşağı və orta gəlir səviyyəsi olan ölkələrdə isə həmin qaydalara əməl olunmadığına görə 2,6 milyon nəfər həlak olur. Dünya miqyasında pasiyentlərə vurulan zərərin sosial və iqtisadi fəsadları bir neçə trilyon dollarla ölçülür.

2019-cu ilin mayında Ümumdünya Səhiyyə Assambleyasının 72-ci sessiyasında sentyabrın 17-si Ümumdünya Pasiyentlərin Təhlükəsizliyi Günü kimi təsis olunub. Bu günün təsis edilməsində məqsəd tibbi xidmətlərin göstərildiyi hər bir səhiyyə ocağında pasiyent təhlükəsizliyinin gücləndirilməsi, sağlamlıq sistemlərindəki keyfiyyətin yüksəldilməsi, müalicə və xidmətlər əsnasında insanların qarşılaşa biləcəyi risklərin azaldılması, eləcə də təhlükəsizlik mövzusunda maarifləndirilmə işinin artırılmasıdır.

Ümumdünya Pasiyent Təhlükəsizliyi Günü səhiyyə sistemində hər bir fərdin təhlükəsiz və keyfiyyətli müalicə ilə təmin olunmasını özündə ehtiva edir.

Heç kəsə sirr deyil ki, insanlara tibbi yardım göstərmək çox vaxt seçilmiş müalicə metodundan asılı olmayaraq xəstənin müalicəsinin uğur dərəcəsi ilə xarakterizə olunan müəyyən risklərlə - cərrahi müdaxilə, dərman və s. ilə əlaqələndirilir. Müalicə uğurlu və ya uğursuz ola, xəstənin sağlamlığına mənfi təsir göstərə bilər. Həkimlərin diqqətini çəkən əsas məsələlərdən biri bu cür risklərin qarşısının alınması və ya maksimum dərəcədə azaldılmasıdır.

Statistik hesablamalar göstərir ki, yalnız xəstəxanalarda hər onuncu xəstə üçün tibbi yardım göstərilməsi zamanı sağlamlığa zərərvurma riski mümkündür. Üstəlik, xəstənin sağlamlığı üçün riskə səbəb olan amillərin təxminən yarısının qarşısını almaq və ya aradan qaldırmaq olar. Ümumdünya Səhiyyə Təşkilatı insan ölümünə səbəb olan riskləri müqayisə edərkən onu da vurğulayır ki, təyyarə qəzası nəticəsində ölüm riski tibbi yardım göstərilməsi zamanı qarşısı alına bilən qəza nəticəsində ölüm riskindən təxminən 10 min dəfə azdır.




## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Goranboy rayon təşkilatının sədri Samir Qocayevə atası

**HATƏM QOCAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi: **Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:** Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 493-16-94, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4446
Sifariş: 1214
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova